www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21-23 sentyabr 2019-cu il Şənbə № 195 (7365) Qiyməti 60 qəpik

**Xəbər**

## Rusiyada axtarışda olan azərbaycanlı Bakıda tutuldu

yazısı səh.14-də

**Gündəm**

### Kəlbəcərli girovların işində mühüm gəlişmə



Azərbaycanın rəsmi təklifi Ermənistan hökumətində müzakirəyə çıxarıldı; Dilqəm və Şahbaz qaytarılır?..

yazısı səh.3-də

### İğdırdakı Azərbaycan sevdalı ailənin dramı: bacı-qardaş Azər və Baycan

yazısı səh.7-də

### Ermənistanda etirazlar pik həddə - təcridxanada iğtişaşlar başladı

yazısı səh.11-də

### "İnterpol"un axtardığı "Akula Akif" Bakıda 7 milyon dollar qazandı

yazısı səh.13-də

### Azərbaycanın strateji obyektləri necə qorunur - Səudiyyə insidentindən çıxarılan nəticə

yazısı səh.4-də

### Xaricdə təhsilin ölkəmizə xeyri və zərəri: ekspert deyir ki...

yazısı səh.6-da

### İrəvandan İsrail-Azərbaycan müttəfiqliyinə qarşı hiyləgər gedis

yazısı səh.9-da

### Süd bazarında saxtakarlıq: istehlakçının aldadılması haradan başlanır? - araşdırma

yazısı səh.10-da

### Gənclər arasında yayılan xaç trendi: müasirlik, yoxsa missiya?

yazısı səh.14-də

### 1 manata bazarlıq edə biləcəyiniz "Bit bazarı"ndan reportaj

yazısı səh.15-də

# BAKININ "RUS NATO-SU"NDAKI GİZLİ ADAMI - İRƏVANDA TƏLAŞ

Azərbaycandan intriqalı gediş; Bakı Qarabağ savaşına hazırlıqları yeni müstəviyə keçirir? Nəbz yoxlanışı, yoxsa...



yazısı səh.8-də

## Fuad Qəhrəmanlının qızının bəyanatı cəmiyyəti ayağa qaldırdı, AXCP-dən istefaya çağırıldı - sərt etirazlar...

Selcan Yağmurun öz atasından zorakılıq gördüyünü bacısı da təsdiqlədi, anası isə övladlarını dəstəklədi; müxalif partiya sədrlərindən və tanınmış jurnalistlərdən Əli Kərimlinin müavininə ağır sözlər...

yazısı səh.5-də



*Eyyub Hüseynov:*

### "Başqa dildə olan məhsulların Azərbaycanda satışı əhali üçün təhlükəlidir..."

yazısı səh.3-də



Başxanım Abbaslı

### Tural Abbaslının anası Müsavat başqanı olmaq istəmir

yazısı səh.9-da



*Fazil Mustafa:*

### "Valideyn qızını satıb canını qurtarmaq istəyirsə bu, cahilliyin bir növüdür"

yazısı səh.14-də



# Pulsuz tibbi xidmətin ləğv olunacağı ilə bağlı məsələyə aydınlıq gətirildi

**"Bu gün özəl klinikalar öz risklərini qiymətləndirə bildiyi kimi, icbari tibbi sığorta sisteminin tətbiq olunduğu pilot rayonlardakı xəstəxanalar da tam 100 faiz olmasa belə, əksəriyyəti özlərini müstəqil idarə edə bilirlər".**

"Report" xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev "Tibb biznesi forumu: mövcud vəziyyət və perspektivlər" mövzusunda keçirilən tədbirdə deyib.

Onun sözlərinə görə, pilot rayonlardakı xəstəxanalara müraciət edənlərin sayı artıb: "Bu gün Mingəçevir Şəhər Xəstəxanası gün ərzində 2000-ə yaxın xəstə qəbul edir. Bu, o deməkdir ki, onlar artıq maliyyə baryeri olmadığı üçün xəstəxanaya müraciət edə bilirlər. Digər tərəfdən, bunun mənfi tərəfi odur ki, pasiyentlər uzun növbədə gözləməli olurlar. Bu praktika isə bütün dünya ölkələrində var".

Z.Əliyev əlavə edib ki, 2020-ci ilin yanvar ayından icbari tibbi sığorta sistemi ölkə üzrə tətbiq olunacaq: "Əsas informasiya texnologiyalarının qurulması istiqamətində işlər aparılıb. İnanırıq ki, bu ilin sonuna qədər bütün xəstəxanalarda xəstəxana idarəçilik sistemi qurulacaq, məlumatlar elektron şəkildə mübadilə edilərək bizim sistemə inteqrasiya olunacaq. Yəqin ki, ilk dövrlərdə xəstəxana informasiya sistemlərinin bütün modullarının işləməsi bir o qədər də asan olmayacaq. Çünki bəzi xəstəxanalar buna tam öyrəşməyib. Ancaq qeydiyyat və digər əsas modullar işlək vəziyyətdə olacaq".

**O qeyd edib ki, Səhiyyə Nazirliyi tərəfindən bütün tibb müəssisələri publik hüquqi şəxsə keçirilirlər**: "Bu ilin sonuna proses bitəcək. Bəzən səhv anlayırlar ki, xəstəxanalar publik hüquqi şəxs olduqda tibbi xidmətlər pullu olacaq. Bu, o demək deyil ki, publik hüquqi şəxsə keçən xəstəxana pullu xidmətə keçir. Xəstəxanaların publik hüquqi şəxs olması onlara çeviklik verir ki, bununla maliyyə resurslarını rahat idarə edə, həm də agentlikdən və digər qurumlardan vəsait qəbul edə bilsinlər".

# Özəl tibbi fəaliyyətlə məşğul olan həkimlərə güzəşt

**"Özəl tibb sektoru üzrə assosiasiyanın yaradılması çox vacibdir". APA xəbər verir ki, bunu "Tibb Biznesi Forumu: mövcud vəziyyət və perspektivlər" mövzusunda keçirilən Forumda çıxışı zamanı Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev bildirib.**

Sədr müavini bildirib ki, müxtəlif assosiasiyalar var, amma özəl tibb sektorunda çalışan həkimləri koordinasiya edən, onların ümumi maraqlarını, problemlərini müzakirə edən, cəmiyyətə, dövlət orqanlarına çatdıran belə bir qurumun olması gələcəkdə bu sistemin daha geniş inkişaf etməsinə şərait yaradacaq.

M.Quliyev deyib ki, Azərbaycanda tibbi turizm inkişaf edir, ancaq bunun birtərəfli olması təəssüfedicidir. Çünki tibbi turizmlə məşğul olanlar Azərbaycandan qonşu ölkələrə xəstə axını təşkil edilir: "Biz elə sistem qurmalıyıq ki, Azərbaycana da tibbi turizmlə əlaqədar insanlar gəlsinlər. İrandan, Gürcüstandan, Türkiyədən, Dağıstandan da xəstə insanların Azərbaycana müalicə üçün gəlməsi barədə düşünməliyik. Biz vətəndaşlarımızı xaricə göndərməklə tibbi turizm sahəsində uğur qazana bilmərik. Özəl tibbi fəaliyyətlə məşğul olan həkimlərə güzəştlər edilməlidir".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Komitə sədri: "Gələn il maaşlar, müavinətlər, pensiyalar artırılacaq"

"2020-ci ilin dövlət büdcəsinin böyük bir hissəsi - təxminən 40 faizi sosial sahəyə yönəldiləcək. Bununla da Azərbaycanın büdcəsi sosial yönümlü və sosial tutumlu olur".

Bunu Oxu.Az-a açıqlamasında **Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli** deyib. Deputat bildirib ki, 2020-ci il Azərbaycan dövlətçiliyi tarixində sosial məqsədlərə ən çox vəsait ayrılan il kimi tarixə düşəcək. H.Rəcəbli əlavə edib ki, bununla da 2020-ci ilin büdcəsindən əməkhaqları, müavinətlər, pensiyaların artırılması nəzərdə tutulur.

*"Bu il cənab Prezidentin sərəncamları ilə müavinətlər, pensiyalar, maaşlar artırıldı. Gələn il də belə gözləntilər var".*


Hadi Rəcəbli

Qeyd edək ki, 2020-ci ildə Azərbaycan dövlət büdcəsinin gəlirləri 24 milyard 484 milyon manat məbləğində proqnozlaşdırılır. Maliyyə Nazirliyinin yaydığı məlumata görə, bu, 2019-cu ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 1 milyard 316 milyon manat və yaxud 5,7% çoxdur. Gələn il büdcə xərcləri isə 25 milyard 617 milyon 700 min manat məbləğində nəzərdə tutulub. Bu isə 2019-cu ilin təsdiq edilmiş göstəricisinə nisbətən 427.7 milyon manat və yaxud 1,7% çoxdur.

2020-ci ildə Azərbaycanın icmal büdcəsinin gəlirləri 27 milyard 605 milyon 300 min manat, xərcləri isə 28 milyard 192 milyon manat məbləğində proqnozlaşdırılır.



# Azərbaycanda deputat borca görə vəsiqəsini girov qoyub

**Milli Məclisin deputatı, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin üzvü Rafael Cəbrayılov borca görə məhkəməyə verilib. Deputat ev tikmək üçün notariat qaydasında təsdiq olunmuş şəkildə 9 sentyabr 2015-ci il tarixdə 300 min ABŞ dolları məbləğində borc alıb. Ona borc verən şəxslə deputat ailəvi yaxın münasibətlərdə olub (Report).**

Lakin deputat borcu vaxtında ödəyə bilməyib. R.Cəbrayılov hətta borcu vəd etdiyi vaxtında qaytara bilməsi üçün zəmanət kimi III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin Deputatının vəsiqəsinin əslini girov qoyub. Borcun qaytarılmadığını görən Fətəliyeva Təranə Rasim qızı Abşeron Rayon Məhkəməsinə müraciət edib. Məhkəmə iddiaçının xeyrinə 15 fevral 2019-cu ildə qiyabi qətnamə qəbul edib.

Cavabdeh şəxs, Rəfael Cəbrayılov məhkəmənin qərarı ilə razılaşmayaraq, apellyasiya şikayəti verib. Apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb.



# Masallıda qoyun oğurlayan kişi və qadın tutuldu

**Masallıda qoyun oğurlayan kişi və qadın saxlanılıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Masallının Kürdəbaz kənd sakini Əkrəm Səmədov həyətindəki tövlədən 1500 manat dəyərində 6 baş qoyunun oğurlanması ilə bağlı polisə müraciət edib (axar.az).**

Masallı Rayon Polis Şöbəsi (RPŞ) əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə oğurluq faktını Cəlilabad rayonunun Xəlilabad kənd sakini, əvvəllər məhkum olunmuş Mətləb Məstiyevin Masallının Çaxırlı kənd sakini Firuzə Abdullayeva ilə birlikdə törətdiyi məlum olub.

Bundan başqa, aparılan araşdırmalarla həmin şəxslərin sentyabrın 1-də Masallının Alışanlı kəndindəki Xudakərim Əliyevə məxsus həyətdəki tövlədən də 1500 manat dəyərində 6 baş qoyun oğurladıqları müəyyən edilib.

# Rusiyada azərbaycanlıların olduğu mikroavtobus qəzaya uğradı: ölənlər var

**Dağıstanın Qayakənd rayonunun "Kavkaz" federal avtomobil yolunda ağır yol-nəqliyyat hadisəsi baş verib. Oxu.Az xəbər verir ki, hadisə zamanı "Lada Qranta" və "Hyundai Solaris" markalı avtomobillər Azərbaycan dövlət nömrə nişanlı mikroavtobusla toqquşub.**

Qəza nəticəsində iki nəfər ölüb, 10 nəfər yaralanıb. Yaralılar Qayakənd xəstəxanasına çatdırılıb. Ölənlər 1993-cü il təvəllüdlü Axtın və 1994-cü il təvəllüdlü Qayakənd sakinləridir. Yaralılar arasında üç Azərbaycan vətəndaşı da var.

İlkin ehtimallara görə, hadisə "Hyundai Solaris" avtomobilinin əks yola çıxması nəticəsində baş verib.

# Generallar Etimad İsmayılovun yas mərasimində

**Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, general-leytenant Əli Nağıyev və Xarici Kəşfiyyat Xidmətinin rəisi, general-leytenant Orxan Sultanov sentyabrın 19-da Ədalət Partiyasının sədri, hüquq elmləri doktoru İlyas İsmayılovun ötən il Türkiyədə qətlə yetirilmiş oğlu Etimad İsmayılovun Təzə Pir məscidində keçirilən il mərasimində iştirak ediblər.**

Musavat.com Strateq.az-a istinadən xəbər verir ki, onlar İlyas İsmayılova oğlunun itkisiylə bağlı başsağlığı verərək, onun kədərinə şərik olduqlarını bildiriblər. Hər iki məmurun addımı rəğbətlə qarşılanıb.

# Hava soyuyacaq, qar yağacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, sentyabrın 21-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Səhər saatlarında duman olacaq. Gün ərzində güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 18-20, günün birinci yarısında 21-25 dərəcə isti, axşam 17 dərəcəyə yaxın isti təşkil edəcək. Atmosfer təzyiqi 755 mm civə sütunundan 760 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq.

Sentyabrın 21-də şimal və şərq rayonlarından başlayaraq bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar, qar yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə güclü olacaq. Havanın temperaturu gecə 16-21, gündüz 26-31, dağlarda gecə 9-14, gündüz 15-20 dərəcə isti təşkil edəcək.

**Sentyabrın 21-dən 22-si səhərədək Abşeron yarımadasında hava şəraitinin təzadlı dəyişəcəyi, güclü xəzri küləyi fonunda temperaturun xeyli aşağı enəcəyi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.**



# Kəlbəcərli girovların işində mühüm gəlişmə

## Azərbaycanın rəsmi təklifi Ermənistan hökumətində müzakirəyə çıxarıldı; Dilqəm və Şahbaz qaytarılır?

**Xəbər verildiyi kimi, Azərbaycanın Əsir və İtkin düşmüş, Girov götürülmüş Vətəndaşlarla iş üzrə Dövlət Komissiyası 11 sentyabr 2019-cu ildə beynəlxalq təşkilatlara kəlbəcərli girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevin “hamının hamıya” prinsipi əsasında Ermənistan vətəndaşları olan erməni hərbçiləri - Azərbaycan ərazisində terror-təxribat əməllərinə görə həbs edilmiş Karen Kazaryan və cəbhənin Füzuli istiqamətində könüllü surətdə Azərbaycan ordusuna təslim olmuş Araik Kazaryanla dəyişdirilməsinə dair müraciət göndərib.**

Dövlət Komissiyasından bildirilib ki, Azərbaycan Respublikasının prinsipial mövqeyi dəfələrlə qarşı tərəfə çatdırılıb. Dilqəm Əsgərov və Şahbaz Quliyevin Karen Kazaryan və Araik Kazaryan ilə mübadilə edilməsinə Azərbaycan tərəfinin hazır olması barədə Dövlət Komissiyası növbəti dəfə aidiyyəti beynəlxalq təşkilatlara 11 sentyabr 2019-cu il tarixdə rəsmi məlumat verib.

Qeyd edək ki, artıq uzun müddətdir Ermənistanın əsirliyində olan girovlarımızın azad edilməsi istiqamətində müəyyən danışıqlar aparılır. Buna baxmayaraq məsələ həllini tapmayıb. Hələ də düşmən əlində olan girovlarımız qaytarılmır. Bəs Dilqəm Əsgərov və Şahbaz Quliyevin erməni hərbçilərlə mübadiləsi mümkün ola bilərmi?

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov “Sherg.az”a açıqlamasında vurğulayıb ki, beynəlxalq təşkilatlar və Qızıl Xaç Komitəsi girovların dəyişdirilməsi prosesini həyata keçirə bilər: “Girovlarla bağlı Avropa Şurasının son sessiyalarının birində geniş tədbir keçirdik. Hesab edirəm ki, bu tədbirin beynəlxalq əks-sədası çox ciddi və güclü oldu. Ermənilər girovlarla bağlı məsələni gündəmdən çıxarmaq üçün çalışsalar da, bu, mümkün olmayacaq. Dövlətimiz baş verənlərdə çox düzgün siyasət aparır. Beynəlxalq təşkilatlarla yanaşı diplomatlarımız da bu məsələni ikitərəfli görüşlərdə qaldırırdılar. Yeni təşkilatlar və beynəlxalq qurumlar bilirlər ki, Ermənistandakı Dilqəm və Şahbaz orada qeyri-qanuni şəkildə saxlanılır. Hesab edirəm ki, ermənilər girovları nə qədər çox saxlayacaqlarsa, özlərinə bir o qədər çox problem yaradacaqlar. Təəssüf ki, Şahbazla Dilqəmin səhhəti həddindən artıq kritikdir. Siyasi nöqteyi-nəzərdən ermənilər girovlarımızı qeyri-qanuni saxlayaraq özlərinə böyük problem yaradırlar”.

Ermənistan baş nazirinin mətbuat katibi Vladimir Karapetyan isə erməni mediasına bildirib ki, Ermənistan hökuməti Azərbaycanın əsirlərin hamının hamıya prinsipi ilə dəyişdirilməsi təklifini nəzərdən keçirir: “Bu məsələni bilirik və müzakirə edirik. Məsələnin həssaslığını nəzərə alaraq, həll yoluna yaxın olduğumuz zaman açıqlama verəcəyik”.

V.Karapetyanın ardınca dünən Ermənistanın müdafiə naziri David Tonoyan erməni hərbçilərlə Dilqəm Əsgərov və Şahbaz Quliyevin dəyişdirilməsinin mümkünlüyünü istisna etmədiyini bildirib. Ermənistanın “aysor.am” saytının yazdığına görə, D.Tonoyan bu barədə keçirdiyi mətbuat konfransında bildirib. O, qeyd edib ki, sentyabrın 19-da Beynəlxalq Qızıl Xaç Komitəsinin Ermənistan nümayəndəliyində görüş keçirib: “Mənə Azərbaycanın əsirlərin dəyişdirilməsi barədə təklifi təqdim olunub”.

Nazir prosesinin təfərrüatını açıqlaya bilməyəcəyini bildirib. O vurğulayıb ki, məsələ ilə bağlı dəqiqləşdirmələr aparılır. D.Tonoyan onu da vurğulayıb ki, dəyişdirilmənin mümkünlüyünü istisna etməsə də, bu məsələ ilə bağlı qərarı qondarma “Dağlıq Qarabağ Respublikası” qəbul etməlidir.

Hazırda isə Nikol Paşinyanın durumu heç də yaxşı deyil. Onun nüfuzunun günmü-gündən aşağı düşdüyü bildirilir. Reytinqinin aşağı düşməkdə olduğu dövrdə Paşinyan əsirlərlə bağlı təklifə müsbət cavab verə bilərmi? Yoxsa cəmiyyətin sərt reaksiyasından ehtiyatlanıb məsələni yenə uzatmaq yolunu tutacaq?

Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidov “Yeni Müsavat”a bildirdi ki, Nikol Paşinyanın mətbuat katibinin Azərbaycanın təklifinin müzakirə edildiyini deməsi, eyni zamanda müdafiə naziri David Tonoyanın “Əsirlərin dəyişdirilməsini istisna etmirik” deməsi prosesdə müsbət irəliləyiş kimi sayıla bilər: “Hər halda qarşı tərəf ən azı konkret cavab verəcək - ya hə, ya da yox. Çünki Azərbaycan bu dəfə daha konkret təklif irəli sürüb, konkret şəxslərin dəyişdirilməsi təklifini verib. İnanırıq ki, Nikol Paşinyan əsir və girovlar məsələsinin öz ölkəsində yaratdığı narahtçılığa da son qoyacaq. Həm də öz hökumətində baş verən qopmalardan, zəifləmələrdən sonra öz reytinqini gücləndirməyə, bir qədər də ictimaiyyət arasında nüfuzunu qaldırmaq məqsədilə əsir və girovların dəyişdirilməsinə razılıq verə bilər. Nəzərə alaq ki, Ermənistan cəmiyyətində də ara-sıra tələblər irəli sürülür ki, Paşinyan Azərbaycandakı erməni əsirləri azad etsin. Hətta bu tələblə aksiyalar da keçirilib”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Bakıda erməni məhsulu qalmaqalı

## Eyyub Hüseynov: “Başqa dildə olan məhsulların Azərbaycanda satılması əhali üçün təhlükəlidir...”



**Dünən Bakıda erməni istehsalı olan peçenye satılması ilə bağlı məlumat yayıldı. “Choco Pie” adlanan peçenyenin “Bazarstor”dan alındığı qeyd olunurdu. Məhsulun bir tərəfində ermənicə, digər tərəfində isə Azərbaycan dilində yazı olduğu məlum olmuşdu.**

Məsələ ilə bağlı Axar.az saytına açıqlama verən **“Bazarstor”un PR və Mareketinq şöbəsinin müdiri Günay Novruzqızı** söyləyib ki, sözügedən məhsul başqa firma tərəfindən bütün market şəbəkələrə paylanılır: “Choco Pie” adlı məhsul yalnız “Bazarstor” üçün gətirilmir. Həmin şirniyyat “Nant” firması tərəfindən bütün marketlər şəbəkəsinə paylanılır. Biz məhsulu alanda qutusuna baxsaq da, məhsulun üzərində yazılanlara diqqət etməmişik. İndi firma ilə danışmışıq. Bu məhsul 3 gün ərzində mağazalardan yığışdırılacaq. Çünki “Bazarstor”un 50-dən çox mağazası var və bunu bir gün ərzində etmək mümkün deyil. Əslində bu yolverilməzdir, amma məhsulun üzərinə baxılmayıb deyə, belə bir şey olub".

“Nant” firmasının əməkdaşı axar.az saytı ilə əlaqə saxlayıb və bildirib ki, məhsulun üzərində ermənicə yazının olması çox təbii haldır. Saytın yazmasına görə, həmin şəxs redaksiyanı təhdid edib. Redaksiya rəhbərliyi sözügedən firmanın fəaliyyətinin araşdırılması və olaya hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Daxili İşlər Nazirliyinə və Vergilər Nazirliyinə, həmçinin Qida Təhlükəsizliyi Agentliyinə sorğu göndərib.

Bildirək ki, Bakıda erməni məhsullarının satılması ilə bağlı bundan öncə də məlumatlar yayılmışdı. Xüsusilə də Bakıda erməni məhsulu olan şirniyyatlara, peçenyelərə rast gəlinir. Onu da qeyd edək ki, Dövlət Gömrük Komitəsinin saxlanc anbarlarında xeyli sayda erməni məhsullarını görmək mümkündür. Bunu həmin anbarlara təşkil olunan mediaturda iştirakımız zamanı da müşahidə etmişik. Dövlət Gömrük Komitəsinin əməkdaşları bildiriblər ki, həmin məhsulları daha çox turistlər sərhəddən keçirmək istəyirlər. Turistlərdən alınan məhsullar anbarlarda bir müddət saxlanılıqdan sonra məhv edilir.

*Bəs mağazaya qədər bu məhsul necə gəlib?*






Öncə qeyd edək ki, kiçik araşdırmamız nəticəsində öyrəndik ki, haqqında danışılan şirniyyatın istehsal şirkətinin əsas mərkəzi Cənubi Koreyadadır. Lakin dünyanın digər yerlərində də paylayıcı və yaxud da istehsalı həyata keçirən şirkətləri var. Bu şirniyyatın 2000-ci ildən etibarən dünyada geniş satışına başlanılıb. Şirkətin rəsmi rəqəmlərinə görə, peçenyenin dünyada 12.1 milyard ədəd satışı həyata keçirilib. Bu ilin aprel ayında məlumat yayılıb ki, Cənubi Koreyanın “Orion” şirkətinin istehsal etdiyi “Choco Pie” məhsulları “Chine Brand Power Index 2019" reytinqində birinci yer tutub. Bu haqda şirkətin nümayəndələrinə istinadən Maeil Business Newspaper xəbər verib. Onların fikrincə, şirkət dörd ildir 1000 xaldan 654 xal qazanır.

Chine Brand Power Index - Çində satılan 17 800 ədəd məhsul haqda istehlakçıların loyallığını, istəklərini və məlumatlılığını qiymətləndirən milli reytinqdir. "Biz bir daha təsdiq etdik ki, "biskvit" sözünü dedikdə Çin istehlakçılarının ağlına gələn ilk şey Choco Pie-dır. Ona görə də biz Cənubi Koreyanın ən yaxşı brendinin nüfuzunu gücləndirməyi təklif edəcəyik", - şirkət nümayəndələri bildiriblər.

“Yeni Müsavat”a danışan **ekspert Eyyub Hüseynov** bildirdi ki, ölkədəki müxtəlif mağazalara çoxsaylı təhlükəli mallar gəlir: “Çox təəssüf ki, bu barədə müvafiq qurumlara dəfələrlə məlumat versəm də, məhəl qoyan yoxdur. Məsələn, bazarda saxta, qaçaqmal yolu ilə gətirilən gürcü limonadları var. Bu barədə müvafiq dövlət qurumlarına məlumat vermişəm, ancaq verdikləri cavab qaneedici deyil. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi cavab verir ki, monitorinq aparıblar, belə bir limonad yoxdur. Halbuki, satılan yerə gedib baxdım, gördüm orada yenə də həmin məhsul satışdadır. Söhbət "Natakhtari" limonadından gedir və bu məhsulun üzərindəki etiketdə Azərbaycan dilində bir cümlə də yoxdur. “Yeyinti məhsulu haqqında”, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanunlara görə, ölkənin əmtəə bazarında satılan bütün mallar xarici dillə yanaşı, Azərbaycan dilində də markalanmalıdır. Azərbaycanın əmtəə bazarında əgər bir malın üzərində erməni dilində yazılıb, azərbaycanca heç bir cümlə yoxdursa, bu, o deməkdir ki, mal Ermənistan üçün istehsal edilib və Azərbaycana daxil olmamalıdır. Yaxın qonşularımızın hamısında bu qanun var və onların əmtəə bazarına milli dildə markalanmayan heç bir mal daxil olmur. Azərbaycanda isə belə deyil. Ümumilikdə malların təxminən 50 faizi milli dildə markalanmadan ölkə bazarına daxil olur. Əgər malın üzərində bir neçə xarici dil və o cümlədən də erməni dilində informasiya yazılıb, lakin Azərbaycan dilində məlumat yazılmayıbsa, mal ölkənin əmtəə bazarından çıxarılmalıdır. Yuxarıda adını çəkdiyim limonadlar tamamilə gürcü dilindədir. Deməli, bu, Azərbaycan üçün nəzərdə tutulmayıb. Əgər malın üzərində həm erməni, həm də Azərbaycan dilində yazı varsa deməli bu, tamamilə qanunidir. Başqa dildə olan məhsulların Azərbaycan bazarında satılması insanlarımız üçün təhlükəlidir. Bizim düşmənimiz olan ermənilər dünyanın hər yerində yaşayırlar. Onlar bilərəkdən bu məhsulun tərkibini dəyişməklə, ölkədə ciddi problem yarada bilərlər. Ona görə də məsələyə ciddi yanaşmaq lazımdır".

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 195 (7365) 21 sentyabr 2019



# Azərbaycanın strateji obyektləri necə qorunur - Səudiyyə insidentindən çıxarılan nəticə

**Sentyabrın 13-dən 14-nə keçən gecə pilotsuz uçan aparatların Səudiyyə Ərəbistanında iki neftayırma zavoduna hücumu Azərbaycanda da təhlükəsizlik məsələsini gündəmə gətirib. Ölkəmizdə kifayət qədər neft zavodları, strateji obyektlər var ki, onların təhlükəsizliyi həyati əhəmiyyətli məsələdir.**

Bu sırada Mingəçevir Su Elektrik Stansiyası, Bakı-Tiflis-Ceyhan neft kəməri, Bakı-Tiflis-Qars dəmiryolu xətti və digər yerlərin adlarını çəkə bilərik. Bu yerlərin təhlükəsizliyinin Azərbaycan üçün nə qədər önəmli olduğu şübhəsizdir. Ermənilərin zaman-zaman səsləndirdikləri hədələr təhlükəsizlik məsələsini diqqətdə saxlamağın vacib olduğunu göstərir.

**Sabiq MTN polkovniki, təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl** vacib obyektlərimizin hər zaman hədəfdə olduğunu söylədi: "İstənilən dövlət başqa bir dövlətin ərazisinə hücum etmək istəyəndə əvvəlcədən təxribat işləri görür. O təxribatlarda hədəf həyatı vacib obyektlər olur. Bu obyektlər su, işıq, çörəklə bağlı olur. Yəni bu insanların ehtiyaclarını ödəyir. Çaşqınlara daha çox səbəb olurlar. Həyatı vacib obyektlər müstəqillik qazandığımız zamandan hər zaman hədəf olub. Düşmən və təzyiq etmək istəyən dövlətlər bu amilləri öndə saxlayıblar. Amma ermənilərin hədəfindən nə üçün qorxuruq? Onların obyektləri bizdən də qorxuludur. Atom Elektrik Stansiyasına raket buraxsaq, onlar daha çox təhlükələr yaşaya bilərlər, nəinki biz. Ona görə də, ermənilərin elə hədəflərinin cavabı yerindəcə verilməlidir. Cavablar verilməyəndə, elə bilirlər ki, bunu edə bilmərik. Bu məsələlərdən narahat olmağa dəyməz. İndiyə qədər qeyd olunan obyektlər qorunub. Bundan sonra da qorunacaq. Sadəcə olaraq, onun səviyyəsi məsələsi var. Dövlət Təhlükəsizlik Xidmətinin bununla bağlı hər zaman tədbirləri olub. Digər mühafizə orqanlarının da tədbirləri var. Bunların hamısı həyata keçirilir. Sadəcə olaraq onu deyə bilmərəm ki, həmin yerlər yüksək səviyyədə qorunur, ya yox. Ötənlərdə bəzi baş verən proseslər göstərib ki, bir sıra məsələlərə səthi yanaşılıb. Düşünürəm ki, kadr dəyişikliklərindən sonra önəmli vəzifələrin başına gətirilənlər həyatı vacib obyektlərin qorunmasını artırıblar. Onu da unutmaq olmaz ki, erməni terroru məsələsi atəşkəs əldə olunandan demək olar yoxdur. Onların məşhur terror təşkilatları hər zaman müəyyən bir istəyə nail olandan sonra hərəkət etmirlər. Yəni Qarabağı alandan sonra əvvəlki kimi Azərbaycanda metro, avtobus partlatmağı və digər terror hadisələrini törətməyi dayandırıblar. Amma ölkəmizə qarşı terror dayanmayıb. Azərbaycan terrorun hədəfində olub. Neft Akademiyasında baş verən terror, zaman-zaman neft və digər su borularını partlatmaq, digər hadisələr törətmək müəyyən bir təzyiq vasitəsi olub. Ona görə də, biz heç vaxt deyə bilmərik ki, biz terrordan sığortalanmışıq. Sadəcə olaraq, Azərbaycanda daxildə vəziyyət getdikcə gərginləşdikcə, xarici qüvvələr bundan yararlanmağa çalışacaqlar. Çalışmaq lazımdır ki, bunun qarşısı alınsın".





**İlham İsmayıl:** "Düşünürəm ki, kadr dəyişiklərindən sonra önəmli vəzifələrin başına gətirilənlər həyatı vacib obyektlərin qorunmasını artırıblar"
**Ramil Məmmədli:** "Neft və qaz kəmərlərinin, inzibati binaların və digər yerlərin mühafizəsi peşəkar səviyyədə həyata keçirilir"

**Hərbi icmalçı Ramil Məmmədli** təhlükəsizlik məsələsinə ölkəmizdə çox ciddi diqqət ayrıldığını qeyd etdi: "Azərbaycanda sosial-iqtisadi inkişaf artdıqca, ölkədə gərginlik yaradılmasında maraqlı olan qüvvələrin də sayı çoxalır. Həmin qüvvələr vətəndaşların dövlətə qarşı etimadsızlıq hissinin formalaşmasına çalışırlar. Biz bunu 2009-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasında baş verən terror hadisəsi ilə şahidi olduq. Həmin hadisəni ölkədə strateji yerlərin mühafizəsi məsələsində dönüş dövrü adlandırmaq olar. Bu hadisə əhəmiyyətli müəssisələrin mühafizəsinin gücləndirilməsində dövlətin daha sərt qərarlar qəbul etməsinə səbəb oldu. Hazırda sadaladığınız bütün strateji obyektlər həm polis, həm Xüsusi Dövlət Mühafizəsi Xidməti tərəfindən güclü şəkildə qorunur. Ermənistandan yönələn təhdidlərin qarşısının alınması ilə bağlı isə daha genişmiqyaslı tədbirlər həyata keçirilir ki, bu istiqamətdə də əsas ağırlıq xüsusi xidmət orqanlarının üzərinə düşür. Məsələn, Bakı-Tiflis-Ceyhan neft kəmərinin Azərbaycandan keçən hissəsi mühafizəsi Xüsusi Dövlət Mühafizəsi Xidmətinin müvafiq qurumu tərəfindən həyata keçirilir. Ümumiyyətlə, Xüsusi Dövlət Mühafizəsi Xidməti ölkədəki bütün strateji dövlət və hökumət orqanlarının - neft və qaz kəmərləri, inzibati binalar və digər obyektlərin mühafizəsini peşəkar səviyyədə həyata keçirir. Azərbaycan dövləti yaxşı bilir ki, ölkəmiz Ermənistan və digər dost olmayan ölkələrin xüsusi xidmət orqanlarının, beynəlxalq terror qruplaşmalarının təhdidindən kənarda deyil. Məhz ona görə də mərhələli təhlükəsizlik tədbirləri qeyd etdiyiniz müəssisələrin təhlükəsizliyi üçün həyata keçirilir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Fuad Qəhrəmanlı REAL-ı günahlandırdı - cavab gəldi

## Natiq Cəfərli: "Tərəf müqabili kimi ona cavab verməyi özümə sığışdırmıram"

**AXCP sədrinin müavini Fuad Qəhrəmanlının qızı Selcan Yağmurun ondan imtina etməsindən sonra başlanan müzakirələr səngimək bilmir. Məsələyə baxışda ikitirəliyin yarandığı açıq görünür. AXCP funksionerinin ünvanına səsləndirilən tənqidlər, təhqirlər hətta müxalifət düşərgəsindən daha çox gəlməkdədir.**

Qızının facebook-dakı məktubu ilə bağlı Amerikada yaşayan jurnalist Sevinc Osmanqızının internet üzərindən yayımladığı verilişin qonağı olan F.Qəhrəmanlı müxalif camiədən üzərinə gələnlərin içərisində REAL Partiyasının təmsilçilərinin çoxluq təşkil etdiyini bildirib: "Görünür mənim REAL-la polemikalarda sərgilədiyim mövqe və bir çox məsələlərdə bu partiyanın mövqelərini uduzması onlarda aşağılıq kompleksi formalaşdırıb. Bir növ daxili qisas hissi yaranıb. Nəticədə belə ehtirasla, coşqu ilə bu işdə soyundular".


Fuad Qəhrəmanlı


Natiq Cəfərli

**REAL-ın icraçı katibi Natiq Cəfərli** AXCP funksionerinin dediklərinə sərt cavab verdi: "Bu söhbətdən sonra onu tərəf müqabili kimi qəbul edib, ona cavab verməyi özümə sığışdırmıram. İnsan istədiyini yaza bilər. Amma REAL-ın rəhbərliyi və Məclisində təmsil olunan heç kəs qınayıcı, təhqiredici ifadələr işlətməyib. İdarə heyəti REAL-ın mövqeyini əks etdirir ki, onun da üzvlərinin heç biri bu barədə mövqe bildirməyib. Lakin REAL-ın sıravi üzvləri məsələyə qarışıb, mövqelərini sərgiləyirlərsə, bu partiyadaxili demokratiyanın göstəricisidir. Yəqin ki, Fuad bəyin təmsil olunduğu partiyada hər şey bir nəfərdən asılıdır, hər şey bir mərkəzdən idarə olunur. Bizdə partiya daxilində mədəniyyət, demokratiya var. Üzvlərimizin hər hansı bir məsələyə münasibət bildirib-bildirməmələri şəxsi işləridir. Onlara nə qadağa, nə də hər hansı bir formada təsir edə bilərik. Biz başqa partiyalardan fərqli olaraq, bir əmrlə idarə olunmuruq, otur deyəndə oturan, qalx deyəndə qalxan təşkilat deyilik. Hər kəsin söz azadlığı var və ona hörmətlə yanaşırıq. Fikir azadlığına yol açmaq lazımdır. Belə bir situasiyada REAL-ı dışlamaq çox absurd görünür. Çox təəssüflər olsun ki, insan öz nəticələrindən çıxarıb, bununla bağlı ictimaiyyəti təxmin edəcək açıqlamalar verməkdənsə, batan adamın saman çöpündən yapışması kimi yükü başqalarının üzərinə atmağa cəhd göstərir. Bu açığı. təəssüfedici və utanverici haldır".

**N.Cəfərli F.Qəhrəmanlı ilə son debatına da toxundu**: "Onunla normal debata çıxmışıq. Çox qəribədir ki, həmin debatdan sonra Fuad bəyin özü mənə təşəkkür etdi. Dedi ki, sizinlə debata çıxmaq və fikir mübadiləsi aparmaq xoş oldu. Debatın belə bir sonluqla bitməsindən sonra çıxıb belə ifadələr səsləndirməyi heç bir məntiqə sığışdırmıram. Üstünlük qazandığını deyib, sonradan bu cür danışmağa nə ad verəsən. Video durur, altındakı şərhlər göz önündədir. İnsanlar hər şeyi gördü. Gördülər ki, qışqır-bağırdan başqa qarşı tərəfdə heç nə görünmədi. Ənənəvi şəkildə səs-küylə nəyəsə nail olmaq cəhdləri oldu. Bunun qarşısını aldım. Sonradan bir cümlə də işlətdim ki, sizdən də bərk qışqıra bilirəm, əgər qışqırmaqdan danışırıqsa qışqıraq, yox əksinə mədəni müzakirə aparmaq istəyiriksə, gəlin arqumentlərlə danışaq. Hər kəs kimin arqumentlərinin necə olduğunu çox qəşəng bilir. İndiki şəraitdə öz səhvlərindən, atdığı addımlardan nəticə çıxarmaqdansa, REAL-ı suçlamağa cəhd etməsi ciddi təəssüf doğurur. Açığı, bir tərəf müqabili kimi ona cavab verməyi özümə sığışdırmıram".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 195 (7365) 21 sentyabr 2019

# Fuad Qəhrəmanlının qızının bəyanatı cəmiyyəti ayağa qaldırdı, AXCP-dən istefaya çağırıldı - sərt etirazlar...

## Selcan Yağmurun öz atasından zorakılıq gördüyünü bacısı da təsdiqlədi, anası isə övladlarını dəstəklədi; müxalif partiya sədrlərindən və tanınmış jurnalistlərdən Əli Kərimlinin müavininə ağır sözlər...

**AXCP sədrinin müavini Fuad Qəhrəmanlının qızı Selcan Yağmur sosial şəbəkələrin Azərbaycan seqmentində iki gündür ki, gündəmin baş personasıdır. Hazırda təhsilinə görə Hollandiyada olan gənc qızın atasından imtina etməsi, yaydığı sensasion bəyanat, ata tərəfindən təzyiqə, zorakılığa məruz qaldığını, anası, tanınmış yazar Zümrüd Yağmurun isə boşanmaq üçün məhkəməyə müraciət etdiyini söyləməsi ciddi rezonans doğurub.**

Selcan bildirib ki, 2009-cu ildən vəziyyət davam edir. O, özünün dizinin, anasının isə barmaqlarının sındırıldığını söyləyib, atasını sadist adlandırıb. Hazırda cəmiyyət ikiyə haçalanıb, Fuad Qəhrəmanlıya, partiyasına elə müxalif fikirli fəallardan tənqidlər leysan kimi yağmaqdadır, siyasətçilər, jurnalistlər, ayrı-ayrı müxalifətçilər AXCP sədrinin müavinini qınayır, partiyadan istefa verməyə çağırırlar. Cəbhəçilər isə sədr müavininə qahmar çıxaraq hadisənin partiyaya aid olmadığını bəyan edir, ailədaxili məsələ kimi qiymətləndirirlər.

Selcan Yağmurun bəyanatı ilə bağlı müzakirələr, reaksiyalar hələ də davam edir, səngimək bilmir. Fuad Qəhrəmanlı son olaraq facebook səhifəsində yazıb ki, Selcan övladı olaraq qalır və bir ata kimi ona münasibəti dəyişməzdir: "Gənc bir qızın emosiyalarından istifadə edib ata ilə övlad arasında ayrılıq yaratmaq istədilər. Və ata ilə övlad arasında girməyə çalışanlar sevinməyə tələsməsinlər, tezliklə hər şey öz yoluna düşəcək. Mən burada Selcanı Hollandiyaya oxumağa yola salarkən çəkdirdiyimiz şəkli paylaşıram. Bu cür mehriban yola salmada zorakı, incik münasibətin əlaməti varmı?"

**Zümrüd Yağmur isə jurnalist Sevinc Osmanqızının verilişində qızının yazdığı məqamları, övladın ata tərəfindən zorakılıq görməsini təkzib etməyib**. "Onun hansı gərginlikdə olduğunu bilirəm. Mən uzun illər onların anasından əlavə, ictimai fiqur və yazar kimi davranmışam. Bu gün isə Selcanın və Sənayın anası kimi davranmağa qərar verdim. Selcanı yola salanda dedim ki, səni incitməyəcəm və heç vaxt atmayacam. Çünki Selcan qorxulardan və zədələrdən ibarət bir uşaqdır. O mənə dedi ki, ana, ancaq sənin anan səni atdı. Mən bu dəqiqə onu atsam, onu məhv etmiş olaram. Yanlışları ilə, doğruları ilə qızımın yanında olacam ki, onun psixoloji durumunu tamamilə normal hala gətirim. Mən zəif qadın olmamışam. Yaşadığım bütün problemlərin öhdəsindən özüm gələ bilmişəm. Məsələni heç vaxt ictimailəşdirmək istəməmişəm. Özümə və qızlarıma güvənmişəm. Bu ölkədə əzilən, şiddətə məruz qalan, məndən də zəif olan insanlar var".

**Onun sözlərinə görə, övladının bunu ictimailəşdirməsini istəməyib:** "Düşünürdüm ki, bu məsələni güclü qadın kimi həll edib öhdəsindən gələ bilərəm".

**Zümrü Yağmur daha sonra yazıb:** "Selcanı mental xəstə çıxarmağa cəhd edənlərin qarşısında mən varam. Selcan nə xəstədir, nə yalançı... 18 yaşlı bir qızı linç edənlər, sizin vicdanınız varmı ki, ona xitab edim?!"

**Qəhrəmanlı ailəsinin ikinci qızı Sanay Yağmur** da bacısı Selcanı dəstəkləyib. O, facebook profilində yazıb: "Selcanın bütün dedikləri doğrudur. Kimin nə deməsindən asılı olmayaraq, bizim "ailə"də şiddət olub".

Qəhrəmanlının iki qızının ailədə şiddət gördüklərini bəyan etməsi, ananın deyilənləri inkar etməməsi AXCP sədrinin müavininə olan qınaqları daha da gücləndirib. Məsələyə siyasətçilər də reaksiya verməyə başlayıblar.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirib ki, kiməsə şiddət tətbiq edilibsə, bu, cinayətdir. Sabiq deputat qeyd edib ki, Fuad Qəhrəmanlının qızının məktubunu oxuyub və çox sarsılıb: "Sosial şəbəkədən oxuduğum məktub məni sarsıtdı. Həm tanınmış bir ailədə baş verənlər, həm də ailənin xanım üzvlərinin şiddətə məruz qalması acısından. Kim haqlıdır? Sosial şəbəkələrdə hamı bu suala cavab verməyə çalışır. Kimi dünyagörüşünə, kimi siyasi mənsubiyyətinə, kimi də tərbiyəsinə uyğun..."

Ümid sədri hesab edir ki, söhbət uzun müddət davam edən, fiziki və psixoloji travma gətirən, nəhayətdə ictimailəşdirilməyə məcbur buraxılan şiddətdən gedir: "Hər bir ailədə səs tonu yüksələ də bilir, hətta uşağı kimsə yüngülcə vura da bilir. Lakin valideyn sevgisinin böyüklüyü ona qarşı edileni unutdurur, uşağa travma yaşatmır. Qadına şiddət isə dartışılacaq mövzu deyil, bu, orta əsr təfəkküründən uzaqlaşa bilməməyin göstəricisidir. Şiddət artıq onu ictimailəşdirmək dərəcəsinə çatıbsa, şəxsi, ailə məsələsi deyil - ictimai, sosial bəladır və o hamı tərəfindən qınanmalıdır ki, başqaları bunu bir daha etməsin".

İ.Ağazadənin fikrincə, ictimai-siyasi statusu olanlar cəmiyyət qarşısında məsuliyyət daşıyır, hərəkətlərinə görə topluma cavab verməlidirlər: "Şiddət göstərdiyi iddia edilən şəxsi kimsə demokrat qiyafəsinə bürüyüb müdafiəyə çalışmamalıdır. Təşkilat sədrinin müavini haqqında bu fikir deyilirsə və bu şiddət və zorakılıq üzvlərlə müzakirə olunubsa, təşkilat günahkardır. Çünki ideallar və dəyərlər uğrunda mübarizə apardığını bəyan edən bir təşkilat bu halı ört-basdır etməməli, ən yüksək vəzifə tutan üzvünün bu hərəkətinə göz yummamalı idi. Edibsə, ideallarına, mübarizəsinə, yoluna və dəyərlərinə xəyanət edib".

**Ümid sədri bildirib ki, Selcanın və Zümrüd xanımın yanındadır:** "Bir körpə dözməyərək cəmiyyətə bağırırsa, səsini duyurmağa çalışırsa, qarşı tərəf ən azı məsələnin bu yerə gəlib çatmasına görə hüquqi və mənəvi məsuliyyət daşıyır".

Eyni zamanda, Avropadakı fəallar, jurnalist Xədicə İsmayıl, İlqar Vəliyev, Röya Rəfili və başqaları Fuad Qəhrəmanlını qınayıblar.

**Xədicə İsmayıl AXCP sədrinin müavininə "əclaf" deyərək profilində yazıb:** "Biri cəbhəçilərə desin ki, bu mövzuda Selcana hücum çəkmək çox ayıbdır. O şərhləriylə partiyalarına vurduqları ziyan daha böyükdür. Fuad Qəhrəmanlı özündə cəsarət tapıb, üzr istəyə, qəzəbini qızını linç edənlərə yönəldə bilərdi, amma bir də yalan danışmağı rəva gördü. Selcan dürüst və güclüdür. İntellektual kapasitəsi də çoxlarından yüksəkdir. Bu partiya olayı deyil, o zaman bir zəhmət, cəbhəçilər yığışsın söhbətdən. Cinayətkara sahib çıxan cinayətə də sahib çıxır".

**AĞ Partiya sədri Tural Abbaslı** "Yeni Müsavat"a bildirdi ki, deyilənlər öz təsdiqini taparsa, ata ilk növbədə ailəsindən, sonra təmsil etdiyi partiyadaşlarından və cəmiyyətdən üzr istəyərək siyasəti tərk etməlidir. Onun sözlərinə görə, Fuad Qəhrəmanlı hakimiyyətə gəlməyə iddialı bir partiyanın ikinci şəxsidir, ədalət və demokratik dəyərlər uğrunda mübarizə apardığını bəyan edən siyasətçidir.

"Məsələni ictimailəşdirən kənar şəxs yox, onun doğma və ailədaxili şiddət qurbanı olan yeniyetmə qızıdır. Düşünürəm ki, əgər, yeniyetmə bir qız övladının iddiaları doğrudursa, bu, böyük rəzilllik və cinayətdir. Ailə üzvlərinə qarşı iddia olunan şiddətlərin icra olunması nəinki siyasətçiyə, heç sivilizasiya və mədəniyyətdən uzaq qalmış birinə belə yaraşmaz".

**ADP sədri Sərdar Cəlaloğlu** isə "Yeni Müsavat"a açıqlamasında məsələyə fərqli prizmadan yanaşdı. Onun fikrincə, Fuad Qəhrəmanlının psixoloji vəziyyəti nəzərə alınmalıydı: "Mən demirəm ki, Fuad bəyin ailəsi yalan deyir. Sadəcə, həbsdən çıxmış adamın psixoloji vəziyyətini nəzərə almırıq. Avropada hər adamın şəxsi psixoloqu var. Mənim də başıma gəlib, gərginliklər olub, insan həyatında travmalar yaşayır. Ancaq mən özümü bir həkim kimi müalicə eləmişəm, bir az məsələlərə fəlsəfi yanaşan insan olduğuma görə o vəziyyətdən çıxmışam.

Selcan atasının başına gələnləri, həbsdə gördüyü təzyiqləri nəzərə alaraq şəfqət göstərməli idi".

ADP liderinin fikrincə, yaşadığı stresslərə görə Fuad Qəhrəmanlıya ola bilsin həbsdə psixotrop dərmanlar verilib: "Fuada bəyə bu baxımdan yanaşmaq lazımdır. Nə üçün belə aqressiv olduğunu analiz etməliyik. Onun opponentlərinə münasibətində də aqressiyası görünüb. Bildiyim qədər, xəstəliyi ilə bağlı müalicə olunurdu. Ona görə ailə üzvləri gərək psixoloji durumunu nəzərə alaydılar".

**S.Cəlaloğlu hesab edir ki, digər tərəfdən şəxsi həyat toxunulmazdır, konstitusiyaya görə qanunsuzluğa yol verilib, baş verənlər ailədaxili məsələdir və qapalı məhkəmə keçirilməliydi:** "Bu məsələ cəmiyyətə çatdırılmamalıydı. Siyasətçilərin haqqında Amerikada, Avropada, Rusiyada nələr eşitməmişik. Klinton kabinetində nə oyunlardan çıxdı, amma istefa vermədi, Fransa prezidenti fahişəxanaya gedərkən şəkli çəkilmişdi, Putin arvadını boşadı. Yəni siyasətçilərin həyatında xoşagəlməz hallar olur. Məsələn, Kalinin (SSRİ dövlət xadimi Mixail Kalinini nəzərdə tutur - E.S.) arvadını sürgünə göndərib".

**ADP sədrinin sözlərinə görə, məişət zorakılığı bir çox ailələrdə olur:** "Türkiyədə bu hallar daha çoxdur. Ancaq məsələni siyasiləşdirməyin, ictimai problemə çevirməyin, bu hadisədə partiyanın məsuliyyət daşıdığını söyləməyin əleyhinəyəm. Çünki ailədaxili işə qarışmağın tərəfdarı deyiləm və bir məişət məsələsi böyüdülür. Hesab edirəm ki, ailəsi Fuad bəy üçün psixoloqa müraciət etməliydi. Psixoloqa getmək ayıb deyil, bu, dəlilik sayılmır".

**Keçmiş NİDA üzvü, REAL Partiyasına yeni üzv olan Zaur Qurbanlı** isə yazıb ki, AXCP-nin sədr müavini hələ də arvadını, qızlarını döyən, sümüklərini qıran adamdır: "Sədr də bunu ört-basdır edən biri. Nə istefa verən var, nə üzr istəyən. Ara yerdə REAL-ı söyürlər. Demokratik idarəetmə, demokratik ölkələrdəki vəziyyət barədə azacıq anlayışınız olsa idi, çoxdan istefa verərdiniz, dərk edərdiniz ki, bu situasiya sizin üçün nə böyük rüsvayçılıqdır, karyeranızın sonudur. Amma sizin cuppulu mənəviyyatınız bunu dərk etmir. Əlacınız olsa, bu barədə etiraz yazan hər kəsin barmaqlarını Zümrüd xanımın barmaqlarının gününə salarsınız".

Avropada yaşayan, **"Oyan" hərəkatının liderlərindən olan Nahid Cəfərov** deyib ki, Fuad Qəhrəmanlı, Əli Kərimli və Səadət Cahangir (əgər vəzifəsi varsa) dərhal istefa verib siyasətdən getməlidirlər: "İndi cəbhəçilər gündəmi dəyişmək üçün əlindən gələni edəcəklər, buna uymayın. Bu, bir daha göstərir ki, bu insanlar saxtadırlar və onların apardıqları mübarizə də saxtadır".

**"Qadın Konsensus Mərkəzi" İctimai Birliyinin sədri, jurnalist Aynur Camalqızı** yazıb ki, Selcan Yağmurla qürur duyub: "Ona görə yox ki, radikal müxalifətin təmsilçisi olan Fuad Qəhrəmanlının qızıdır, atasının siyasi reputasiyasını yerlə-bir etdi, əsl simasını ortaya çıxartdı. Yox. Ona görə ki, artıq ölkəmdə zərərli və təhlükəli mental zəncirləri dağıtmaq gücündə olan bir nəsil yetişir: təhsilli, özgür, öz hüquqlarını bilən, özünü ifadə edən yüksək dünyagörüşlü qızlarımız var. Və onlar hətta atalarının belə şiddətinə, ədalətsizliyinə, "çöldə demokrat, evdə diktator" simasızlığına baş əyməyəcək qədər güclüdürlər".



**A.Camalqızı hesab edir ki, Selcan nümunəsi hər kəsə görk olmalıdır:** "Nəhayət, anlamaq lazım ki, qadınla kişi bərabərhüquqludur. Dünyanın heç bir yerində "kişidir dəə..." deyib kişilərin əxlaqsızlığına göz yumulmur, əxlaq hesabı yalnız qadından tələb olunmur. Çox təəssüf ki, qaragüruhcu söyüşcüllərin ağızlarından Azərbaycan dilindəki söyüş və təhqiri ifadə edən bütün iyrəncliklər tökülür. O ağızlar Əli Kərimlinin mənəviyyatıdır. O qafasızlar anlamır ki, yapon dilini bilən, Avropada təhsil alan gənc Əli Kərimliyə sitayiş edə bilməz".

**Qeyd edək ki, Müsavatın eks-başqanı İsa Qəmbər məsələyə Hüseyn Cavidin bir şeiri ilə sətiraltı eyham vurub: "Kadın gülerse şu ıssız muhitimiz gülecek,**
**Sürüklenen beşeriyet kadınla yükselecek..."**

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

*P.S. Qəzet çapa gedərkən məlum oldu ki, Fuad Qəhrəmanlı AXCP sədri müavinliyindən istefa verib.*

YENİ MÜSAVAT
N 195 (7365) 21 sentyabr 2014



# Xaricdə təhsilin ölkəmizə xeyri və zərəri - ekspertdən təklif gəldi

## Xaricdə təhsil alanlar müsabiqədən kənar dövlət orqanlarına işə qəbul edilə bilər

**Azərbaycanda təhsil almaq üçün son zamanlar xeyli abituriyent valideynlərinin vəsaiti hesabına xarici ölkələrə yollanır. Xüsusilə də Türkiyə, Ukrayna, Almaniyaya, digər Avropa ölkələrinə gedənlərin sayı çoxluq təşkil edir. Xaricdə oxumaq üçün gedənlərin bir çoxu təhsillərini başa vurduqdan sonra Azərbaycana qayıtmırlar. Bəs onların xarici ölkələrə təhsil dalınca getməsi ölkəmiz üçün faydalıdırmı?**

"Yeni Müsavat"a danışan ekspert Kamran Əsədov bildirib ki, abituriyentlərin oxumaq üçün xaricə yollanmaları dövlətimiz üçün zərərlidir: "Məlum olduğu kimi xaricə oxumaq üçün gedənlərin valideynləri buradan onlara hər ay pul göndərir, qəbul olduqları zaman universitetə ödəniş edirlər. Bütün bu vəsaitlərin hamısı dövlət büdcəsindən gedir. Məsələn, tutaq ki, sizin 10 manat pulunuz var və kimsə onun 8 manatını aparır. Bu, dövlət üçün problemdir və ölkədən kənara ciddi şəkildə vəsait axınıdır. Gedənlər eyni zamanda ölkədə gender bərabərliyini də pozurlar. Bu, həm də ölkədən kənara beyin axını deməkdir. Təkcə Türkiyədə 15 min azərbaycanlı oxuyur. Ümumilikdə isə öz vəsaitləri hesabına xaricdə təhsil alanların sayı 40 min nəfərdir. Hərəsinə ay ərazində 500 manat göndərilsə, ölkədən kənara xeyli vəsaitin çıxması deməkdir. Ona görə gedirlər ki, Azərbaycanda təhsilin əlçatanlığı təmin olunmayıb. Biz ölkəmizdə onlara tam şəkildə təhsil almaq imkanı vermədiyimiz üçün bu şəxslər məcbur qalıb, digər ölkələrə üz tuturlar. Yəni qəbul şərtləri sadələşdirilməlidir. Ali təhsilin əlçatanlığı tam şəkildə təmin olunmalıdır. Elə etməliyik ki, tələbələrimiz təhsil alsınlar. Əmək bazarına diplomsuz daxil olmaq mümkün deyil. İnsanlar həm də ona görə gedirlər ki, burada 3-4 min manat verdikləri ixtisasa Türkiyədə 400-500 manat verib, yiyələnirlər. Eyni zamanda Türkiyədəki universitetlərin təhsil səviyyəsi də bizdə olduğundan yüksəkdir. Onsuz da Bakıda təhsil alanların yaşayış xərcləri, kirayə pulları valideynlər tərəfindən ödənilir. Bu baxımdan Türkiyənin dünya reytinqində olan universitetlərində təhsil almaq, ölkədə təhsil almaqdan daha üstündür".

**Ekspert bildirib ki, xaricə təhsil dalınca gedənlər 3 kateqoriyaya bölünür:**

"Birincisi, qəbul ola bilməyib, gedənlər; ikinci kateqoriyaya ixtisaslarını bəyənməyib gedənlər; üçüncü kateqoriyaya isə dövlət proqramı ilə xaricə üz tutanlardır. Görürük ki, dövlət proqramı ilə gedənlərdən geri qayıdanlar olur. Ancaq öz vəsaitləri hesabına gedənlərin əksəriyyəti geri dönmür. Bu, çox ciddi rəqəmlərdir. Yaxşı olar ki, biz "Dövlət qulluğu haqqında" qanuna dəyişiklik edən zaman qəbul edək ki, xaricdə təhsil alanlar müsabiqədən kənar dövlət orqanlarına işə qəbul edilsinlər. Bu, bizə lazımdır. Belə insanları diqqətdən kənarda saxlamaq olmaz. Hazırda 40 minə yaxın şəxs Azərbaycandan kənardadır və onlar bəzən dini qruplaşmalara qoşulur, xəstəlik daşıyıcıları olurlar və sonda bizim ölkəmizə geri dönürlər. Bu pis məsələlər özümüzə təsir göstərir. Ona də ali məktəblərə qəbul plan yerini artırarsaq belə problemlər olmaz və insanlar ölkədə təhsillərini davam etdirərlər. Bu, əsas məsələlərdən biridir. Doğrudur, bu il plan yeri 43 mindən 48 minə qaldırıldı. Ancaq yenə də 5 min yer boş qaldı. Keyfiyyət məsələsi də artmalıdır. Əgər orta məktəbi 82 min nəfər bitirirsə, ən azından sayı 60 minə qaldırmaq lazımdır ki, oxumaq istəyən ölkədə təhsil ala bilsin".

**Xarici universitetlər bir çox hallarda abituriyenti attestat qiymətləri ilə qəbul edir. Bu barədə Kamran Əsədov aşağıdakıları söylədi:** "Azərbaycanda keçirilən qəbul imtahanlarında toplanılan bal, bilik və savad göstəricisi ola bilməz. Bilik və savadı yoxlamaq üçün yeganə vasitə Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlar deyil. Kadrlar imtahan nəticəsində deyil, universitetdə formalaşır. Yəni savadlı kadr heç də test imtahanında 700 bal toplayan deyil. 700 bal toplayan indiyədək bizim 111 nəfər adamımız olub. Əmək bazarında onların hansısa uğurunu görürükmü? Qəbul imtahanında toplanan nəticələr savad göstəricisi deyil. Yaxşı məhsulu yemək formasında aşpaz hazırlayır. Aşpaz bu işi yaxşı görməsə, süfrəyə qoyulan məhsul da zay olacaq. Dünya universitetləri deyirlər ki, sənin oxumaq, anlamaq qabiliyyətin varsa, yetirşdirmək də mənlikdir. Biz isə deyirik ki, kadr universitetə daxil olduğu zaman savadlı olmalıdır. Əslində bu, doğru deyil. Kadr universitetdə yetişməlidir. Ona görə də kiminsə attestatla qəbul olması, onun savadsızlığı anlamına gəlmir. Oxumaq və yazmağı bilməzi kifayətdir ki, bu adamdan mütəxəssis hazırlansın. Əsas universitetin üzərinə güc düşür. Bizdə ildə kifayət qədər adam qəbul olmur. Ancaq ortaya "məhsul" çıxara bilmirik. Problem də budur".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

---

**Bu ölkədə ailədaxili zorakılıq yeni hadisə deyil. Ümumiyyətlə, bu, Şərqdə qədim və yayğın ənənədir, bu cür hadisələrə heç kim təəccüblənmir. Bir çox ölkələr hətta arvad döyməyi qanuniləşdiriblər.**

**Xalid KAZIMLI**



# Qadın hərəkatının gücü

Ancaq bu cinayətdir və dünyanın inkişaf etmiş ölkələrində adı da məhz bu cürdür, qanunlara, konvensiyalara bu cür salınıb, cəzası da var.

Bizim ölkəmiz indilikdə Şərqlə Qərbin arasında, qaba ifadə ilə desək, haça-paça qaldığından ailədaxili zorakılığa münasibət ən azı ikimənalıdır. Onu normal sayanlar var, ona şiddətlə qarşı çıxanlar var.

"Arvad döyməyin üsulları" məzmunlu kitab oxuyanlardan, bu cür çıxışlar edən müctəhidləri dinləyənlərdən, dəqiqə başı "qızını döyməyən dizini döyər" deyənlərdən fərqli bir şey gözləmək olmaz.

Eyni zamanda, ailə başçısını qapının nökəri, sürücüsü, yükdaşıyanı, pulqazananı kimi görən, onu daima boşanacağı, uşaqlarından ayıracağı ilə təhdid edən, öz ana statusundan məkrli niyyətlə yararlanan qadınlar da mövcuddur.

Bütün bunlar Azərbaycan cəmiyyətinin gerçəklikləridir və bu gerçəkliklər xeyli eybəcərdir.

Fakt budur ki, təkcə bu il 10 minə yaxın ailə dağılıb. Bu ailələr durduğu yerdə dağılmayıb, mütləq ailədaxili zəlzələ baş verib və onun şiddəti dağıdıcı gücdə olub.

Hələ bu da ailədaxili zorakılığın miqyasını əks etdirmir. Böyük ehtimalla münaqişədə olan nikahlı cütlüklər bunun ən azı 10 misli qədər çoxdur. Sadəcə, dalaşan ər-arvadların çoxu "uşaqların xətrinə", "el-oba nə deyər" arqumenti ilə birtəhər bir-birinə dözüb-dururlar.

Bu cür münaqişələrin bir hissəsi zamanla korşalır, tərəflərin hirs-hikkəsi öləziyir, bir hissəsi isə daha da şiddətlənir və tərəflər çıxış yolunu məhkəmələrdə axtarırlar.

Bir məsələ də barizdir ki, bizim cəmiyyətin insanları normal, sakit şəkildə boşana bilmirlər, mütləq dava-dalaş, qalmaqal yaşayırlar, bir-birinə ağır psixoloji, maddi zərbə vurur, bir-birinin cəmiyyətdəki reputasiyasını korlayırlar.

Arvadından ayrılmış kişilərin 90 faizinə qarşı səslənən "içirdi, çəkirdi, gəzirdi" ittihamı artıq lətifə mövzusuna çevrilib. Çünki onu hamıya yapışdırırlar.

Boşanmış qadınlara münasibətdə isə daha kiçik miqyasda yuxarıdakı ittihamın sonuncu feli səslənir və bu iddia sırf həqiqət olsa belə, öz keçmiş arvadı haqqında belə deyənlərə münasibəti yaxşı olmur.

Bəli, ailədaxili zorakılıq problemi var, ildən-ilə də şiddətlənir. Daha dəqiqi, bu cür hadisələr ildən-ilə daha çox ictimailəşir və ajiotaj doğurur. Bunun başlıca səbəbi odur ki, qadınlar öz hüquqlarını anlamağa və onun uğrunda mübarizə aparmağa başlayıblar, əvvəlki vaxtlarda olduğu kimi, susmaq, zorakı kişinin iradəsinə boyun əymək fikrində deyillər.

Elə AXCP sədrinin müavini Fuad Qəhrəmanlının və yazıçı-publisist Zümrüd Yağmurun ailəsində meydana gələn qovğaya reaksiyalardan da göründü ki, əslində Azərbaycanda ciddi feminizm hərəkatı varmış və çox güclüymüş.

Qəhrəmanlını daha çox qınayan, ittiham edən, necə deyərlər, "yıxıb-sürüyən" məhz bu hərəkatın fəallarıdır.

Onlar düz edirlərmi? Düz edirlər. Kişi hegemoniyası və kişi zorakılığı ailə institutunu dağıdırsa, buna qarşı çıxanlar mütləq olmalıdır.

Amma biz sosial şəbəkədə yayılan açıqlamalardan həqiqəti tam olaraq bilmirik. Təbii ki, tərəflərin hamısı, el dilində desək, "öz sözünün göyçəyi"ni deyir. Heç kim həqiqətləri tam demir, heç kim tam dürüst danışmır.

Biz isə bu yarımçıq informasiyalardan çıxış edərək birtərəfli qaydada mühakimələr aparırıq və heç bir mandatımız, haqqımız olmadan hökmlər veririk.

Bəlkə də dünən və bu gün minlərlə ailədə bənzər zorakılıqlar oldu və biz bunu bilmədik. Çünki bir santexnikin, qəssabın, sürücünün, müəllimin və sair və ilaxır sıradan peşə sahibinin öz həyat yoldaşıyla dalaşmasıyla bir siyasət adamının oxşar hərəkəti arasında fərq böyükdür.

Fuad Qəhrəmanlı da çilingər olsaydı, bu hadisə ajiotaj doğurmayacaqdı. Amma o, hakimiyyətə iddia edən bir partiyanın rəhbərlərindən biridir, ictimai fiqurdur, tanınan adamdır, ona görə də bu hadisə qalmaqala çevrildi.

Bu hadisədən ona və mənsub olduğu partiyaya qarşı istifadə edilməsi faktı da var. Amma eyni hadisə, tutaq ki, YAP sədrinin müavini Siyavuş Novruzovun başına gəlsəydi, onda da müxalifətçilər bunu ümumiləşdirəcək, "görün, ölkəni kimlər idarə edir" deyəcəkdilər.

**Hadisənin ən real adı isə "bir ailənin dağılması"dır. "Manyaklıq", "psixopatlıq", "kişi hegemonluğu", "görünməmiş vəhşət", "sadistlik" kimi epitetlər olaya emosional yanaşmadır. Hər bir ailə dağılanda ortaya bənzər iddialar çıxır.**

YENİ MÜSAVAT
N 195 (7365) 21 sentyabr 2019

**Türkiyənin Azərbaycanın Naxçıvan diyarına açılan qapısında, İğdır vilayətində adam özünü elə Azərbaycandakı kimi rahat hiss edir. Haraya gedirsənsə, kiminlə həmsöhbət olursansa, əslən azərbaycanlı olduğunu deyir, yaxud Azərbaycan türkləri ilə əlaqələrindən bəhs edir.**



# İğdırdakı Azərbaycan sevdalı ailənin dramı: bacı - qardaş Azər və Baycan

## Azər Yaycılı: "Babam çox ağlayırdı, hər dəfə deyirdi ki, ermənilərin üzündən balamı selə verdim"

91 min əhalisi olan İğdırda məskən salan soydaşlarımızın dədə-babaları Arazın o tayından, Qərbi Azərbaycan torpaqlarından, əsasən də İrəvandan qaçıb gediblər. Ötən əsrin əvvəllərində ermənilər Azərbaycan türklərini qırıb-çatanda xilas olmaq üçün Türkiyə ərazisinə üz tutan bir kişinin nəvəsi ilə həmsöhbət olduq. Dəyərli diplomatımız Hulusi Kılıçın ideya müəllifliyi və təşkilatçılığı ilə baş tutan Bakı günlərindən sonra təsadüfən rastlaşdığımız xanımın adının Azər, qardaşınınsa Baycan olduğunu öyrənəndə onunla həmsöhbət olmaqdan vaz keçə bilmədim. Beləliklə, müsahibimiz Azər Yaycılı ilə söhbəti təqdim edirik.

Müsahibimiz iş adamı İshaq Yaycılının həyat yoldaşıdır, iki övlad anasıdır. Qızı Tətik Ankarada, oğlu Mehmet Alper Bakıda yaşayır. Oğlunun 1 qızı, 1 oğlu, qızının isə iki əkiz övladı var. Olduqca səmimi, gülərüz xanım deyir ki, özünü İğdırdan kənarda təsəvvür etmir. Bu ailə Türkiyə-Azərbaycan qardaşlığının gözəl nümunəsi, simvolu da sayıla bilər. Azərbaycan və Türkiyə türkü gözəl övladlar yetişdirib və insanlıq üçün gözəl əməllərə sahiblik edirlər. Özünün dediklərindən:

- Mən əslən azərbaycanlıyam. Babam İrəvanda doğulub. Ordan İğdıra gəlib. Məmur olduğu üçün çoxsaylı şəhərlərdə yaşayıb. Ömrünün sonlarında təqaüdə çıxdı və elə orada da vəfat etdi. Amma mən İğdırdan qopa bilmədim, 43 ildir burada yaşayıram. Mən İğdırdan vaz keçə bilmərəm. Mənim burda çox gözəl dostlarım var. Bax, elə bu gün dostlarımızla bir araya gəlmişik. İğdır çox rahat yaşanacaq yerdir. Çox şükürlər olsun, çox xoşbəxt evliliyim var. Özüm evdar xanımam. Əslində evdə otururam, desəm, yanlış olar. Həyat yoldaşımın işləri ilə əlaqədar çox sıx səyahətlərimiz olur. Bir müddət İğdırda, Analar Dərnəyində könüllü ana olaraq çalışdım, dərnəyimizə çox böyük dəstəyim oldu. Daha sonra dərnəkdən ayrıldım, amma mən yenə də öz-özlüyümdə böyük bir dərnək sahibiyəm. Oxuyan, çox bacarıqlı, kasıb tələbələri daha çox dəstəkləyirəm. Bu şəkildə yola çıxdım, çox şükür, çox razıyam onlara dəstək olduğuma görə. Həyat yoldaşım da, mən də İğdırda çox insanlara dəstək veririk və bundan zövq alırıq. Onu da deyim ki, bu illər ərzində daim qonaqlarımız olub. İğdıra gələn qonaqlarımızla yaxından maraqlanmışıq.

***- Siz 43 ildir ki, İğdırdan İrəvana, dədə yurdunuza baxırsınız. Bu zaman hansı hissləri keçirirsiniz?***

- Bəli, haqlısınız. Öncə deyim ki, mən Azərbaycan türkü olmağıma görə qürur duyuram. Damarlarımı hardan kəssələr, son damlasına qədər azərbaycanlı qanı axar. Rəhmətlik Yunus babam bizə bu millətçiliyi, azərbaycançılığı aşıladı. Babam İrəvandan gəldiyi gündən bəri ailəsində vaxtilə gördüyü mədəniyyəti bizə təbliğ elədi. Biz o mədəniyyətlə böyüdük. Babam bank müdiri idi.



**İrəvandan, erməni zülmündən qaçan kişinin nəvəsi: "Zeynəb Xanlarovanın adı çəkiləndə atam ağlayırdı"**

***- İrəvanlı günlərindən sizlərə nələr danışırdı? Yadınızdadırmı?***

- Bəli, danışırdı. Mənim atam babamla birlikdə qaçaqaç zamanı buraya gələrkən 3-4 yaşlarındaymış. Erməni zülmündən xilas olmaq üçün gəlib Arazın kənarına yerləşibmişlər, sonra İğdıra gəliblər.

***- Bu, nə vaxt baş verib?***

- Türkiyə Cümhuriyyətinin elan edilməzdən 1 gün öncə atamla babam buraya gəliblər, 1923-cü ildə. İğdıra qaçdıqları günün səhəri Türkiyə Cümhuriyyəti elan edilib.

***- Başına gələnlərdən nələr deyirdilər?***

- O zaman ermənilər İrəvanda dədəmi rahat buraxmırmışlar. Babamın 3 oğlu var imiş. Onları da götürüb Arazdan qaçmaq istəyib. O zaman babam çox çalışıb, amma nənəm İrəvanı tərk etməyib. Deyib ki, mənim qardaşlarım burdadır, onları qoyub gedə bilmərəm. Babam 1,5 yaşında olan uşağı belinə alıb Arazı keçirmək istəyəndə sel əmimi onun əlindən alıb aparıb. Babam çox ağlayırdı, hər dəfə deyirdi ki, ermənilərin üzündən balamı selə verdim.

Bir gecə babama deyiblər ki, Cəfər, səni və uşaqlarını öldürəcəklər. Danışırdı ki, gündüzdən planlaşdırdım və gecə ilə uşaqları da götürüb qaçdım. Hətta bir az qızılı da varmış, gündüzdən onu torpağa basdırıb ki, almasınlar əlindən. Axşam düşəndə birdən ermənilər onları görüblər. Qaçıb qamışlıqda gizləniblər. Rəhmətlik babam deyir çayın ortasında Araz birdən elə coşdu ki, Əmim deyib "ağa, uşağı sel apardı!" Bu vaxt ermənilər də o taydan bunları gülləyə tuturlar. Atam qışqırır ki, tez qaçın! Atamı və əmimi Arazın sahilinə çıxarandan sonra soruşub ki, bəs, Yusif hardadır? Əmim deyib ağa, suda axdı, getdi... (Gözləri dolur - E.P.) Babam sonra danışırdı ki, Araz sahilində bir gizli yer tapıb səhərə kimi gözünü suya dikib ki, heç olmasa Yusifi su üzə çıxarar, heç olmasa ölüsünü taparam. Sonra babam yenə də Arazı o taya keçib, gedib ki, nənəmi buraya gətirsin. Amma nənəm "məni öldürsən də, gəlmərəm", deyib. Babam qayıdıb ki, "balamın biri çayda axdı getdi, sən heç üzülmürsənmi?" Nənəm deyib daha onda heç gəlmirəm.

***- Sonrakı illərdə nənənizdən, dayılarınızdan xəbər oldumu?***

- Yox. Onların heç biri ilə sonradan əlaqə olmayıb. Yalnız babamın əmisi, dayısı uşaqlarının Azərbaycanda olduğunu öyrəndik və əlaqələr yarandı. Vaxtilə qohumlarımızdan İrəvandan Gəncəyə, Bakıya qaçıb, orada yerləşənlər olub. Onlarla görüşürük.

***- Adınızın tarixçəsi barədə danışmağınızı rica edirəm...***

- Biz Azərbaycan üçün ölürük, çox sevirik Azərbaycanı. Adımız da ordan gəlir. Mənim adım Azər, qardaşımın adı Baycandır. Biz Azərbaycanı bu sayaq yaşatdıq köksümüzdə. Bundan başqa digər bacı-qardaşlarımızın adları belədir: Yüksəl, Solmaz, Könül, Murad adlarımız da var. Mənasını deyirəm: Azərbaycan yüksəlsin, solmasın, könlümdə muradım oldu! Bunu başqa kimsə bilməz! (Gülür)

***- Bu adları kimlər verib sizlərə?***

- Atamla anam bərabər qoyublar bu adları. Biz iki qardaş, 5 bacıyıq. Yalnız Xədicə bacım Avropada yaşayır, digər bacı-qardaşlar burdadır. Anam-atam bir-birinin ardınca rəhmətə getdilər.

***- Bu gün Ermənistan adlanan, qədim Azərbaycan torpaqları, sizin ata-baba yurdunuz İrəvanla bağlı nələr düşünürsünüz, Azər xanım?***

- Mən inanıram ki, bir gün torpaqlarımızı geri alacağıq! Qarabağımız hökmən azad edilməlidir! Mən hər gün televiziya xəbərlərini izləyirəm, savaş xəbərlərinə qulaq asıram. Əsgərimizi şəhid edirlər, üzülürəm. Deyirəm bir gün gələ, xəbər yayıla ki, ermənilər tərk edib, Qarabağ Azərbaycana qayıdıb. Deyirəm nə ola, bir gün ermənilərin vicdanı oyana, deyələr ki, azərbaycanlılar, gəlin bu torpaqlara sahib olun! Nə qədər gözəl olar, bütün Türk dünyası sevinər! İnşallah, Qarabağı alacağıq! Ermənilərin o torpaqlarda yaşamağa haqqı yoxdur, oralar bizim yurdumuzdur! Nəinki Qarabağ, həmçinin İrəvan! Mənim atamın Ankaradakı məzar daşı üzərində doğum yeri kimi İrəvan yazılıb *(Telefonu açıb, atasının məzar daşının fotosunu göstərir-E.P)*. Hər bayramlarda gedib atamızın məzarını ziyarət edirik. 2012-ci ildə rəhmətə getdi. Atam son nəfəsinədək bizə azərbaycançılığı aşılayıb. Azərbaycanı o qədər çox sevdirdi ki, bizə. Zeynəb Xanlarovanın adı çəkiləndə atam ağlayırdı. 1990-cı illərdə Azərbaycan və Türkiyə arasında sərhədlər açılanda, gediş-gəliş başlayanda o qədər sevinirdi ki...

***- Atanız Azərbaycana gedə bildimi?***

- Əlbəttə. Getdi, qohum-əqrəbalarını, dayısı oğlanlarını tapdı. Atamın dayıları rəhmətə getsə də, onların uşaqları ilə əlaqələrimiz bu gün də var.

***- İğdıra çox bağlısınız. Yəqin bunun bir səbəbi də Azərbaycan türklərinin sayının çoxluğu ilə bağlıdır, eləmi?***

- Doğrudur. Amma bir şeyi də deyim ki, köhnə vaxtlardakı kimi deyil. Bir zamanlar daha çox idi azərbaycanlılar. Əksəriyyəti İstanbula köçüb. İğdırı tərk edib getdilər, mən o insanlara görə çox üzülürəm.

***- Buradan Araz çayına məsafə o qədər də çox deyil. Heç getdinizmi oralara?***

- Yox. Yalnız Naxçıvandan gələndə Arazı görürəm. Buraya yaxın olan Dizə kəndi var. Kəndin yaxınlığından Araz axır. Ata-babam ordan keçib gəlib bura. Babam, atam və əmim burada çox çətin günlər yaşayıblar. Ev-eşik yox, aclıq, səfalət... Uzun müddət bir kənddə qalıblar. Sonra dövlət onlara sahib çıxıb, İğdır daxilində yaşamaq izni verib. Babam ikinci dəfə sonsuz bir qadınla evlənib. Ancaq həmin qadın əmilərimlə yaxşı davranmayıb. Deyirdi ki, baxdım Yunisi, Əlini incidir. Babam deyib olsun, mən ölməmişəm, uşaqlarıma baxacağam və həmin qadını boşayıb. Bir neçə il sonra yenidən evlənib. Ondan da iki bibim olub. Belə ağır günlər olub. Atam-babam hər zaman bütün bunları bizə anladıb. Hər dəfə o hadisələri anlatdıqca o günləri bizə də yaşamışıq. Babam bizimlə birgə yaşadı, anam bir ömür boyu ona baxdı. Amma mənim atamın babama elə bir hörməti var idi ki, heç bir övlad atasına o cür sayğı göstərməz. Atam dedi o, bizi çiyninə alıb gətirib. Babam yıxıldı, ayağı qırıldı, 18 il yataq xəstəsi oldu, mənim anam onun hər bir zəhmətini çəkdi, bir dəfə də olsun "öldüm", "yoruldum" demədi. Deyirdi biz onun çörəyini yeyirik. Yəni belə bir ana-ata var idi...

*Bu hekayəni, anladandan sonra dünyasını dəyişən böyüklərə rəhmət diləyib, Türk düşmənlərinə lənət deyib, Azərbaycan sevdalı Azər xanımdan ayrılırıq... Kim bilir, İğdırda nə qədər belə sevdalı qan qardaş-bacılarımız var. Allah qorusun. Gün gəlsin Bakıdan birbaşa quru yolla Qarabağa, oradan Mehri dəhlizindən keçərək Naxçıvana və İğdıra yetişə bilək, inşallah!*

❑ **Elşad PAŞASOY,**
**Türkiyə, İğdır**
**FOTO: "Yeni Müsavat"**



# Orta sinifin yaranması

Zamin HACI
zaminhaci@gmail.com

"Qamçı da münbit torpağa düşəndə kök atır"
*(Stanislav Yeji Lets)*

**REAL başqanı İlqar Məmmədov heç şübhəsiz, Azərbaycan siyasət aləmində maraqlı, lazımlı, hörmətə layiq, mübariz insanlardan biridir. Əslində belə insanlar o qədər az, barmaqla sayılacaq qədər qalıb ki, bəzən haqlarında nəsə tənqid yazmağa da adamın əli gəlmir. Ancaq elə hörmətim bu qeydlərimə səbəb olmuşdur. (İqtidardakılar da nəzərə alsınlar: biz onları hörmət elədiyimiz üçün tənqid edirik. Əsl dost qüsurları göstərəndir).**

İlqar bəy nahaq yerə, tam qərəzli şəkildə 5 il zindanda incidiləndən sonra keçən il azadlığa çıxdı. Həmin vaxt partiyasının qərargahında mətbuat konfransı keçirdi. Konfrans zamanı bir növ yeniliyə əl atmışdı, bizim siyasi məhbusların brifinqlərində rast gəlmədiyimiz əyani vəsaitdən yararlanmışdı. Konkret yazsam, bəy bir yekə plakatın (bu şeyin adını yaxşı bilmirəm, nəsə başqa texniki adı olmalıdır, mən "plakat" yazdım) önündə oturmuşdu və orada Azərbaycanın iqtisadi göstəriciləri əks olunmuşdu. Konfrans müddətində bəy hərdən arxaya dönüb o göstəricilərin pisləşməsini vurğulayırdı. Həqiqətən, şəkildəki diaqramlarda vəziyyətimiz çox ağlamalı idi. Ümumi daxili məhsul filan qədər düşüb, xarici borc kəlləçarxa qalxıb, əhalinin gəliri şey olub, manat zad olub və sairə. Ən maraqlısı isə İlqar bəyin bu rəqəmləri göstərəndən sonra dövlət başçısına üz tutub "Məni buna görəmi həbs etmişdiniz?" deməsi idi. Yadımdan çıxdı, o rəqəmlər və diaqramlar son 5 ilin müqayisəsindən ibarət idi və REAL başqanının sözündən dolayısı ilə belə çıxırdı ki, əgər onu həbs etməsələr vəziyyət bu cürə ("cür" bəzən mənanı tam əhatə etmir, qəsdən elə yazdım - Z.H.) olmazmış.

Ötən 1 il İlqar bəyin nə qədər haqlı olmasını isbata yetirmişdir. Dünən bir xəbər oxudum, deyir bəy Facebook sosial şəbəkəsindəki statusunda... ölkəmizdəki inkişafdan bəhs edibdir! Yazıb ki, Azərbaycanda orta sinif formalaşıb, yüz minlərlə yaxşı yaşayan insanlar var, restoranlar aşıb-daşır, maşın idxalı artmışdır, dükanlar, bazarlar məhsulla, alıcı ilə süslənibdir və sairə. Deməli, bu inkişaf nəyin sayəsində olub? Ay sağ olasınız: İlqar bəyin azadlığı hesabına! Əgər o türmədə saxlansaydı, orta sinifin yaranması da böyük müşkül olardı. Cəmi bir ilin içində iqtisadiyyatımız zirvələr fəth etmişdir, ümid edirəm o plakatlı brifinqin tərsi də keçirilər. Lazımdır. Ölkəmizi istəməyən o qədər pis gözlər var, qoy baxıb kor olsunlar.

Hazırda türmələrdə xeyli siyasi məhbusun saxlandığı bildirilir, bu temada hətta bir neçə siyahı vardır. İndi siz fikirləşin ki, əgər o məhbusları da azad eləsək Ümumi Daxili Məhsul nə qədər artar, xarici borclarımız isə, əksinə, neçə prosent azalmış olar!? Siyasi məhbusların azad edilməsinin xarici borclara təsiri şübhəsiz məsələdir, çünki xaricdən nə qədər it-qurd gəlib bizim hökuməti bu temada soyub gedirlər. Bəzən firəng meruzəçiyə verməyə pul olmur (neft düşür, İlqar bəy hələ azad edilməyib və sair amillər), məcbur qalırıq adımızı yazdırıq. Hətta Canik müəllim türmədə temanı tam açmadı, eləcə "proyektlərə xərcləmişəm" dedi, ancaq ehtimal var ki, Beynəlxalq Bankdan yoxa çıxan pulların xeyli hissəsi də bu xaricilərə borcları bağlamağa gedibdir.

**Kim bilir, bəlkə də biz Əli Kərimlini tutub buraxsaq orta sinif daha çox artar. Yoxlamağa dəyər. Yoxsa 30 ildir ölü kapital kimi ortalıqda dolaşır, millətə xeyri dəymir.**



# Bakının "Rus NATO-su"ndakı gizli adamı - İrəvanda təlaş

## Azərbaycandan intriqalı gediş; Bakı Qarabağ savaşına hazırlıqları yeni müstəviyə keçirir? Nəbz yoxlanışı, yoxsa...

**Bir neçə gün öncə Belarus Təhlükəsizlik Şurasının katibi, yanvarın 1-dən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT - "Rus NATO-su") baş katibi postunu tutacaq Stanislav Zacyanın başçılıq elədiyi nümayəndə heyəti Bakıda oldu. Maraqlıdır ki, səfərdən cəmi bir gün əvvəl Ermənistan KTMT-nin axırıncı üzvü kimi təşkilatda müşahidəçi statuslu ölkə və təşkilatların qəbulunu nəzərdə tutan protokolları öz parlamentində ratifikasiya etmişdi. Müşahidəçi statusu ala biləcək ölkələrin başında isə Azərbaycanın adı çəkilir.**

Vəziyyəti intriqalı edən daha bir məqam isə Ermənistan parlamentinin məlum qərarından sonra Bakının KTMT-yə üzvlük məsələsini müzakirə etmədiyini bəyan eləməsi oldu. Bu açıqlamanın ardınca general Zasya Bakıda peyda oldu. Yeri gəlmişkən, artıq İrəvan da belaruslu generalın baş katibliyinə rəsmən razılıq verib.

Politoloq Elxan Şahinoğluna görə, ola bilsin, bu, bir nəbz yoxlanışı olub. Ancaq nəbz yoxlanışına nə ehtiyac? Hər halda, Azərbaycan bu quruma üzvlüklə bağlı öz əsas şərtini vaxtilə xarici işlər naziri Elmar Məmmədyarovun dilindən aydın şəkildə səsləndirib: öncə Qarabağ, işğal məsələsi yoluna qoyulmalıdır. Yəni öncə torpaqlar, sonra "Rus NATO-su"...

*****

**Qeyd edək ki, general Stanislav Zasya hərbi təhsilini Bakıda alıb.** Burada onun dostları var. Yəni Azərbaycan ondan ötrü yad məmləkət sayılmaz. Bu isə artıq bəri başdan Azərbaycan üçün Ermənistan qarşısında psixoloji üstünlükdür. Xüsusən də Qarabağ müharibəsinin bitmədiyi məqamda bu amil Bakının köməyinə gələ bilər. Başqa sözlə, Zasyanın baş katib olacağı 2 ildə Azərbaycan daha rahat antiterror əməliyyatı apara bilər. Bunu Bakının Qarabağ savaşına hazırlıqları yeni müstəviyə keçirməsi kimi də qiymətləndirmək mümkündür.

Görünür, bu və digər səbəbdən təzə baş katibin Bakı səfəri düşmən Ermənistanda təlaş yaradıb. "Yeni Müsavat"ın məlumatına görə, bu xüsusda Novostink.ru portalına Naira Ayrumyanın şərhi diqqət çəkir.

**Erməni təhlilçi yazır**: "Azərbaycan prezidenti İlham Əliyev Belarus Təhlükəsizlik Şurasının katibi Stanislav Zasyanın başçılıq elədiyi nümayəndə heyətini qəbul edib. Hansı ki, yanvarın 1-dən KTMT-nin baş katibi postunu tutacaq. Bakıda onun yeni təyinat münasibətilə təbrik edib və əminlik ifadə edilib ki, KTMT baş katibi postunda o, Azərbaycan Belarus əlaqələrinin inkişafına töhfə verəcək. Demək olar, bu səfər ərəfəsində isə Azərbaycan rəsmən bəyan elədi ki, KTMT-nin işində hər hansı statusda iştirak eləmək niyyətində deyil. Belə bir bəyanat Ermənistanın KTMT Nizamnaməsinə düzəlişi ratifikasiya eləməsindən sonra Bakının KTMT-də heç bir statusu ilə barışmayacağı haqda qəti mövqeyindən sonra verildi. Rusiya baş nazirinin müavini Borisov isə Azərbaycanın üzvlüyü və ya müşahidəçi statusuna qarşı olmadığını bildirmişdi".

Müəllif daha sonra yazır: "Əliyevin Zasya ilə görüşünə nəzərən bu qənaətə gəlmək olar ki, KTMT Azərbaycanla baş katib səviyyəsində dostluq edəcək. Məsələ ondadır ki, Stanislav Zasya Bakıya sıx bağlıdır, zabit təhsilini burada alıb. Əliyevin Lukaşenko ilə əlaqələrindən isə danışmağa dəymir. Azərbaycan prezidenti Zasyanı Bakıya dəvət eləməklə bunu göstərmək istəyir ki, Azərbaycanın müşahidəçi statusunun olmamasına baxmayaraq, bundan sonra onun KTMT-də öz "səlahiyyətli səfiri" olacaq və İrəvan buna qarşı heç nə edə bilməyəcək".

**Ardınca məqalə müəllifi narahatlıqla sual edir: "Bəs Azərbaycan prezidentinin KTMT-nin gələcək baş katibi ilə belə aşkar istilik nümayiş etdirməsinə İrəvan necə reaksiya verəcək?** İlham Əliyev artıq bir dəfə nümayiş etdirib ki, hətta KTMT üzvü olmaya-olmaya da o, özünün "əks-agentləri" vasitəsi ilə təşkilata təsir edə bilər. Məsələn, yada salmaq olar ki, Ermənistanın üzvlük məsələsinin həll olunduğu Avrasiya İqtisadi Birliyi Şurasının iclasında Qazaxıstan prezidenti Nursultan Nazarbayev "bizim yoldaş Əliyevin" məktubunu oxumuşdu (Söhbət işğalçı ölkənin təşkilata Dağlıq Qarabağla birgə qoşulmaq istəyinin əngəllənməsindən gedir - "YM"). O zaman İrəvan Ermənistanla Dağlıq Qarabağ arasında Avrasiya Birliyinin gömrük postlarının qoyulmasını əngəlləyə bildi. Lakin diskomfortu gozlətmək çətin oldu. İndi isə Əliyev Zasyanı Bakıya dəvət eləməklə yeni gedişə qərar verib".

*****

**Əslində Azərbaycanın KTMT-yə üzvlüyünə ehtiyac yoxdur.** Onsuz da Azərbaycan blokda Ermənistandan da güclü nüfuza və işğalçı ölkə xaric, bütün üzv-ölkələrlə yaxın münasibətlərə malikdir. Hətta biziləri ilə (Belarus, Qazaxıstan) Ermənistandan da dərin əlaqələrə malikdir. Belarus və Rusiya ilə üstəlik, geniş hərbi əməkdaşlıq mövcuddur - hansı əməkdaşlıq ki, zaman-zaman İrəvanda qəzəb doğurub və doğurur.

**2016-cı ilin "4 günlük" aprel müharibəsi azmanı isə KTMT üzvləri əsasən Azərbaycanın mövqeyində dayandılar.** Ermənistanın ciddi cəhdlərini baxmayaraq, təşkilat, onun baş katibi Bakı əleyhinə heç bir bəyanat vermədi. Elə bu yaxınlarda dövlət sərhədinin Qazax istiqamətində Azərbaycan DSX-nın keçirdiyi uğurlu əməliyyata və silahlı qüvvələrimizin yeni strateji nöqtələri ələ keçirməsinə də (əməliyyat zaman bir Ermənistan hərbçisi öldürülmüşdü - red.) İrəvanın ciddi cəhdlərinə rəğmən, KTMT rəhbərliyi Ermənistan deyəni demədi.

**O da bəllidir ki, bu qurumda dominant Rusiyadır.** Rusiya KTMT-ni ilk növbədə postsovet məkanında öz geosiyasi maraqlarını gerçəkləşdirmək üçün yaradıb. Əgər Moskva Azərbaycanla blok çərçivəsində daha sıx əlaqələrə malik olmaq, yəni ölkəmizi Ermənistanla eyni blokda görmək istəyirsə, yolu bəlli: o zaman zəhmət çəkib Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün öz forsoptuna təzyiq eləsin...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 195 (7365) 21 sentyabr 2019

# Ermənistandan İsrail-Azərbaycan müttəfiqliyinə qarşı hiyləgər gediş

## Yəhudilərə yaşamaq imkanı verilməyən işğalçı ölkə Təl-Əvivdə səfirlik açmaq istəyir, Bakı analoji addımı atsınmı...

**Erməni KİV-nin verdiyi məlumata görə, Ermənistan hökumətinin iclasında İsraildə - Təl-Əviv şəhərində səfirliyin açılması qərara alınıb. Xarici işlər naziri Zohrab Mnatsakanyan tərəfindən hazırlanan Nazirlər Kabinetinin qərarında deyilir: "İsrail dövlətində (iqamətgahı Təl-Əvivdə) Ermənistan Respublikasının səfirliyi yaradılsın". Nazir söyləyib ki, İsraildə səfirlik açılması ikitərəfli əməkdaşlığın dərinləşməsinə öz töhfəsini verəcək: "Bu addım Ermənistanın Yaxın Şərqdəki maraqlarını qorumağa və orada təmsilçiliyini genişləndirməyə yönəlib".**



Bildirilir ki, Ermənistanla İsrail arasındakı diplomatik münasibətlər 1992-ci ildən mövcuddur.

İsrail Xarici İşlər Nazirliyinin isə rəsmi İrəvanın səfirlik açmaq qərarını alqışladığı qeyd edilir. Vurğulanır ki, səfirliyin açılışı ölkələr arasında ikitərəfli münasibətlərdə yeni və əhəmiyyətli mərhələ olacaq.

Azərbaycan-İsrail münasibətlərinin daha da yaxınlaşdığı bir vaxtda Ermənistanın bu addımı hiyləgər gediş hesab olunur.

Düzdür, müəyyən geosiyasi səbəbələrdən Azərbaycanın hələlik İsraildə səfirliyi yoxdur. Ancaq bütün sferalarda iki ölkə arasında əməkdaşlıq yüksək səviyyədədir.

**İsrailin isə Azərbaycanda səfirliyi fəaliyyət göstərir.**

Ekspertlər bildirir ki, yəhudi diaspor təşkilatlarının dəstəkləri ölçüyə gəlməz. Hətta güclü erməni diasporu lobbiləri qarşısında yəhudi dostlarımızı yanımızda görmüşük, onların ciddi dəstəyini hiss etmişik.

Ermənistan yəhudilərin yaşamadığı, yəhudilərə heç də müsbət münasibəti olmayan bir ölkədir, bir tərəfdən də Ermənistan İranla çox sıx münasibətlərə malikdir.

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a bildirdi ki, Ermənistan hökumətinin 19 sentyabr tarixli iclasında bu ölkənin İsraildə səfirliyin açılması barədə qərarın qəbul edilməsi gözlənilməz olub. Ən gözlənilməz isə İsrail XİN-in dərhal bu addımı alqışlamasıdır: "1948-ci ildə yaranmış İsrail dövləti Osmanlıdan qalma ərəb və erməni təbəələrlə qonşu olub. Lakin ermənilərin ərəblərlə daha çox birgəyaşayış təcrübəsi, ortaq məişəti meydana gəlib, nəinki yəhudilərlə. Ermənilər ərəblərlə birlikdə bir sıra terror təşkilatları yaratmış, Suriya, Fələstin, Livan və s. ərazilərində terror təlimləri keçiblər. Ermənistanın ərəb ölkələri ilə ənənəvi yaxın əlaqələri olub. İsrail uydurma erməni "soyqırımı"nı tanımaqdan imtina etmiş, daima Azərbaycan və Türkiyə ilə yaxın əlaqələr saxlamışdır. Eyni zamanda, ermənilərin İsrailin əbədi düşməni İranla çox sıx əlaqələri mövcuddur. İndiyə qədər İsraildə Ermənistan səfirliyinin açılmamasının səbəblərindən biri məhz bu olub".

**Politoloq ehtimal edir ki, bütün bunlara rəğmən yəhudi dövlətində Ermənistan diplomatik nümayəndəliyin açılması ABŞ və Rusiya arasında əldə edilmiş razılığa əsasən mümkün olub:** "Məlumdur ki, Paşinyanın hakimiyyətə gəlməsinə Amerika Erməni Milli Assambleyası, ABŞ və Avropadakı digər erməni diaspor təşkilatları ilə yanaşı, ABŞ yəhudi lobbisi də dəstək verib. Bu dəstəyin verilməsində bir sıra amillər mühüm rol oynayıb. Onlardan ən əsası İran ətrafında baş verən proseslərdir. ABŞ və İsrailin Ermənistanda Paşinyanın timsalında özlərinə yaxın qüvvələri iqtidara gətirməsi İranı şimaldan nəzarətə almaq strategiyasının əsas hissəsidir. Ermənistanın İsraildə səfirliyinin açılması ABŞ-dakı müəyyən dairələrin, o cümlədən yəhudi lobbisinin dəstəyi əsasında baş verir. Eyni zamanda, Böyük Səkkizliyə qayıdan Rusiyanın ABŞ-a Ermənistanın İsraildə səfirliyinin açılmasında güzəştə getməsi mümkündür. Yəqin ki, İsrail baş naziri Netanyahunun Putinlə görüşündə bu məsələ müzakirə olunub və razılığa gəlinib. Ermənistana hərtərəfli dəstək verərək Azərbaycanı İsraillə əməkdaşlıqda ittiham edən İran bundan sonra Ermənistanla münasibətində bunu nəzərə almalıdır. Azərbaycanın indiyədək İsraildə səfirliyi yoxdur, baxmayaraq ki, İsrail Azərbaycanla Ermənistandan daha yaxşı münasibətlərə malikdir".

**Azərbaycan Milli Məclisinin yəhudi əsilli deputatı Yevda Abramov isə modern.az-a deyib ki, hər bir dövlətin hansısa ölkədə səfirlik açması onun xarici siyasətinin leytmotividir, dövlət başçısının siyasətidir:** "Ermənistanın əvvəl də İsraildə səfirliyi olub. Sonradan müəyyən məsələlər üzündən o səfirlik bağlandı. Bu da ölkələrin xarici siyasətində olan prioritetlərdən asılıdır. Ermənistan Cənubi Qafqazda düzgün siyasət aparmayıb. Ermənistanın İranla münasibətləri İsraili qıcıqlandırıb. Nəticədə bu ölkə səfirlikdən imtina edib. Ermənistanın İsraildə səfirlik açmaq məsələsi yenidən gündəmdə olsa da, bu o demək deyil ki, səfirliyin açılması yaxın günlərdə baş tutacaq. Sadəcə, rəsmi Yerevan öz təkliflərini verib.Hesab edirəm ki, bu məsələdən sensasiya yaratmaq olmaz. Bu, böyük faciə deyil. Ermənistanın İsraildə səfirlik açmasının Azərbaycana heç bir ziyanı yoxdur".

**Yəhudi parlamentari bildirib ki, Ermənistanın səfirlik açmaq istəyini Azərbaycanla müqayisə etmək doğru deyil:** "Bizim İsraildə səfirlik açmamağımız ölkə prezidentinin kompetensiyasına daxil olan incə məsələdir. Bizi bu məsələdə Ermənistanla eyni səviyyədə qoymaq düzgün deyil. Məsələnin bu formada qoyuluşundan narazıyam. Azərbaycanın geosiyasi maraqları, yerləşdiyi mövqe başqa, Ermənistanın tutduğu mövqe isə tamam başqadır. Unutmaq olmaz ki, biz İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Söhbət ondan getmir ki, bu məsələdə İran faktoru ola bilər. O zaman İsrail məsələni başqa cür qoya bilər. Ermənistan İranla dostluqda heç də bizdən aşağı səviyyədə deyil".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Tural Abbaslının anası Müsavat başqanı olmaq istəmir

## Başxanım Abbaslı: "İsa Qəmbər mənə bildirdi ki, başqa daha yararlı və dəyərli namizədini göstər..."


Başxanım Abbaslı

**Müsavat Partiyasının başqanlığına, eləcə də MNTK və Məclis üzvlüyünə namizəd olmaq istəyən şəxslərin müvafiq ərizə ilə Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinə müraciət etməsinə başlanıb. Bu haqda Təşkilat Komitəsinin sədri Gülağa Aslanlı məlumat verib. Məlumatda deyilir ki, ərizələr QHTK-nin sədrinin adına yazılmalı və bazar günü istisna olmaqla, hər gün saat 12:00-dan saat 17:00-a kimi QHTK-nin sədri Gülağa Aslanlıya və ya onun müəyyənləşdirdiyi Təşkilat Komitəsinin üzvünə təqdim edilməlidir.**

Bu arada Müsavat başqanı vəzifəsinə namizədlərin sayının 3-ə çatdığı barədə məlumatlar yayılıb. Bəzi media orqanlarının yazdığına görə, namizədliyini irəli sürən üçüncü şəxs partiyanın Divan üzvü Başxanım Abbaslıdır. Digər iki namizəd isə Divan üzvləri Tofiq Yaqublu və Yadigar Sadıqlıdır.

**Başxanım Abbaslı isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, başqanlığa namizədliyini irəli sürdüyü barədə xəbərlər yanlışdır:** "Mən Müsavat başqanlığına namizədliyimi irəli sürməmişəm. Namizədliyimlə bağlı nə rəsmi ərizə ilə müraciət etməmişəm, nə də partiyanın Divan iclasında bu barədə rəsmi mövqeyimi bəyan etmişəm. Sadəcə olaraq hələ qurultayın günü təyin olunmamışdan xeyli əvvəlki dövrlərdə partiyada məni qane etməyən idarəçilikdən narazılığımı Divan iclaslarında dilə gətirəndə ya zarafatla, ya da hirsli şəkildə bəyan etmişəm ki, xoşagəlməzlikləri aradan qaldırmaq üçün başqan özüm olacağam. Görünür, mənim bu sözlərimi əsas tutaraq başqanlığa namizədlərdən birinin də mən olduğumu düşünüblər və mediaya da açıqlama veriblər. Lakin bir daha deyirəm ki, mən başqanlığa namizədliyimi nə yazılı, nə də şifahi şəkildə rəsmi olaraq irəli sürməmişəm. Hələ ki, prosesin gedişini izləyirəm. Gedişatdan asılı olaraq addım atacağam. Hələ fikirləşirəm. Belə görürəm ki, başqanlığa namizədlərin sayının çox olmasını istəyirlər. Yəqin hazırkı başqanın lehinə olmayan səslərin bölünməsi üçün bunu istəyirlər. Amma bu da bir seçki taktikasıdır və qeyri-adi nə isə yoxdur. İkincisi, Müsavat başqanlığına və digər seçkili orqanlara istənilən Müsavat üzvü namizədliyini irəli sürmək hüququna malikdir. Heç kimə qadağa yoxdur".

**B.Abbaslı onu da dedi ki, Müsavatda seçkilərin demokratik keçiriləcəyinə şübhə etmir:** "Mən keçən qurultayda da demişəm ki, Müsavatda başqanlığa və digər seçkili orqanlara seçkilər demokratik, şəffaf keçirilib və keçirilir. Müsavatda seçkilər gizli səsvermə ilə keçir. Mən heç vaxt bu cür seçkilərə şübhə ilə yanaşa bilmərəm. Müsavatda seçkilər şəffaf olur. Müsavat partiyasının fərqi və böyük nailiyyəti odur ki, seçkiləri şəffaf keçirir. Sadəcə, seçkiyə qədər ki, dövrdə təbliğat aparmaq, insanlarla görüşlər keçirmək, onların səsini qazanmaq məsələsi başqa məsələdir.

Yəqin ki, bu dəfə də Arif Hacılı seçkidə qalib gələcək. Çünki işlər o istiqamətə gedir. İsa Qəmbərin isə yenə də Arif Hacılını dəstəkləyəcəyi ehtimalı yüksəkdir. Mən keçən seçkilərdən sonra İsa Qəmbərə dedim ki, niyə elə mütləq Arif bəy olmalı idi? Mənə bildirdi ki, başqa daha yararlı və dəyərli namizədini göstər".

Onu da qeyd edək ki, B.Abbaslı Müsavat başqanlığına sabiq namizəd, AĞ Partiyanın sədri Tural Abbaslının anasıdır.

Partiya başqanı seçkiləri oktyabrın 12-də Müsavatın IX qurultayında keçiriləcək.

Müsavatın hazırkı başqanı Arif Hacılının isə namizədlərin irəli sürülməsi prosesi rəsmi olaraq başladıqdan sonra öz qərarını elan edəcəyi deyilir.

**O, nizamnaməyə əsasən, ikinci müddət üçün Müsavat başqanı vəzifəsinə namizədliyini irəli sürmək hüququna malik olduğunu bildirib.**

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 195 (7365) 21 sentyabr 2019



# Süd bazarında saxtakarlıq: istehlakçının aldadılması haradan başlanır?

## **AQTA:** "Ərzaq məhsulları üçün dövlət standartları yalnız tövsiyə olunan tələbləri müəyyənləşdirir"

## **Birlik rəhbəri:** "Bir çox emalçılar quru südün tərkibinə palma yağı vururlar"

**Azərbaycan əhalisinin istehlakında mühüm yer tutan məhsullardan biri də süd və süd məhsullarıdır. Uzun illərdir bu məhsulların keyfiyyəti ilə bağlı cəmiyyətdə müzakirələr aparılır. İnsanlar, bir qayda olaraq, piştaxtalarda olan süd və süd məhsullarına deyil( yoğurt, dondurma və sair istisna olmaqla), fərdi şəxslərin təklif etdiyi məhsullara üstünlük verirlər.**

Bu gün Bakı şəhəri istisna olmaqla, digər regionlarda əhalinin böyük əksəriyyəti məhz heyvan saxlayan fərdi şəxslərin istehsal etdiyi süd, qatıq, şor, pendir, yağı alır. Hətta Bakı ətrafı qəsəbələrdə də eyni vəziyyətdir. Kiçikli-böyüklü müəssisələrdə("sex-zavod") istehsal olunan məhsulların keyfiyyətinə inam aşağı səviyyədədir. Halbuki normal halda emal olunmuş - müxtəlif zərərli maddələrdən (bakteriya və mikrooqranizmlərdən) təmizlənmiş hər bir məhsul istifadə üçün bu prosesi keçməyən məhsuldan daha təhlükəsizdir. Lakin Azərbaycan cəmiyyəti hələ də bunun əksini düşünməkdədir və istehlak davranışları da əsasən bu düşüncənin təsiri ilə formalaşıb. Digər tərəfdən, piştaxtalardakı süd və süd məhsulları fərdi təsərrüfatların məhsullarından 70-80 faiz bahadır. Məsələn, hazırda Bakı şəhərində 1 litr xam südü fərdi istehsalçıdan 1 manata, onun pasterizə olunmuşunu marketlərdən 1,7-2,1 manata almaq olur. Qiymətdə olan bu fərq də alıcıların fərdi istehsalçıya yönəlməsinə gətirən əsas faktorlardan biridir.

### İdxaldan real asılılıq nə qədərdir?

Ötən il Azərbaycanda süd və süd məhsullarının adambaşına illik istehlakı 240,2 kiloqram (südə çevrilmiş halda) təşkil edib. Bu, Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi 395 kq normanın 81 faizə yaxını deməkdir. Lakin Nazirlər Kabinetinin 2014-cü ildə müəyyənləşdirdiyi adambaşına minimum istehlak normasından - 232,4 kq-dan yuxarıdır. Hansı ki, əksər ekspertlər Nazirlər Kabinetinin tərtib etdiyi minimum istehlak normalarının ümumdünya normalarından çox aşağı olduğu səbəbilə artırılmasını təklif edirlər.

Müqayisə üçün qeyd edək ki, 2016-cı ildə Rusiya Səhiyyə Nazirliyi tərəfindən əsas ərzaq məhsullarının illik istehlak normaları təsdiqlənib. Bu normalarda süd və süd məhsullarının adambaşına illik istehlak həcmi südə çevrilmiş halda 325 kq, gündəlik 890 qram müəyyənləşdirilib.

Avropa Bilriyində adambaşına illik real süd və süd məhsulları istehlakı 306 kiloqram təşkil edir. Dünyada istehsal olunan südün 43 faizini istehlak edən Asiya ölkələrində bu 78 kq-dır.

Çində illik istehlak norması adambaşına 109,5 kq, gündəlik 300 qram müəyyənləşdirilib, real istehlak bundan 2 dəfə aşağıdır. Almaniyada bu göstərici 91-113 kq müəyyənləşdirilib, real istehlak bundan 3 dəfə yüksəkdir - 350 kq. ABŞ-da illik istehlak norması 18 yaşa qədər uşaqlar üçün illik 415 kq gündəlik 1137,7 qram müəyyənləşdirilib, istehlak həcmi də buna uyğundur.

Rəsmi statistikaya inansaq, hazırda Azərbaycan südə olan illik tələbatının(təxminən 2,5 milyon ton) 86,7 faizini yerli istehsal hesabına təmin edir, cəmi 13,3 faiz idxal məhsuludur.

Yenə rəsmi statistikaya görə, ölkədə 1 milyon 200 min südlük inək var. Bunun mütləq əksəriyyəti fərdi təsərrüfatlarda olan qeyri-cins heyvanlardır. Belə ki, hazırda ölkədə süd istehsal edən cəmi 37 müasir fermer təsərrüfatı var. Cins heyvanlardan günə 20 litr, yerli cinslərdən isə 5-7 litr süd sağılır. Ona görə də heyvan göstəricisinə baxmayaraq, süd o qədər də bol deyil. Üstəlik, fərdi təsərrüfatlardan südü toplamaq kifayət qədər böyük resurslar tələb edir ki, bu da istehsal olunan malın maya dəyərini artırdığına görə heç kimə sərf etmir.

Bu səbəbdən də Azərbaycanda istehsal olunan süd məhsullarının böyük hissəsi xaricdən gətirilən quru süddən əldə olunur. Bu isə yerli istehsalın mühüm bir hissəsinin də əslində idxal məhsulu olduğunu deməyə əsas verir.

**Süd və süd məhsulları İstehsalçıları və İxracatçıları İctimai Birliyinin sədri Samir Eyyubov mətbuata verdiyi müsahibədə bunun səbəbini göstərib:** "Bizim süd təsərrüfatlarına imkan yaratsalar, 90 faiz özümüzü təmin edə bilərik. Problem ondadır ki, quru süddən emal olunan məhsul təbii süddən emal edilən məhsuldan daha ucuzdur. Əslində quru südün bir problem tərəfi yoxdur, bu, südün tərkibinin buxarlanması nəticəsində qalan quru hissəsidir. Problem odur ki, quru südü yenidən südə çevirəndə onun tərkibinə yağ vurulmalıdır. Bir çox emalçılar onun içinə palma tərkibli yağlar vururlar. Palma yağı 2 man 50 qəpik, kərə yağları 14-15 manatdır. Problem həmin falsifikat mallarındadır"(Oxu az).

### Quru südə inam niyə itib?

Birlik rəhbəri quru süddə bir problem olmadığını qeyd etsə də, reallıq bu məhsulla bağlı ciddi saxtakarlıqların olduğundan xəbər verir. Belə ki, quru süd pasterizə olunmuş inək südünün yüksək temperaturda qurudulması nəticəsində əldə olunan tozdur. Quru südün təzə süddən əsas üstünlüyü daha uzun müddətdə saxlanmaq imkanının olmasıdır. Quru süd əldə olunması üçün təzə süd əvvəlcə lazım olan yağlılığa gətirilir, yüksək təzyiqli aparatlarda qatılaşdırılır, daha sonra homogenlşdirilərək 150-180 dərəcə temperaturda tərkibindəki su tamamilə qurudulur. Südün tərkibi 85 faiz sudan ibarət olduğuna görə 1 kq quru südün əldə olunmasına kifayət qədər böyük həcmdə təzə süd sərf edilir. Bu isə təmiz quru südün çox bahalı məhsul olmasını şərtləndirir.

Süd yüksək temperaturda qurudularkən zərərli oksisterollar yaranır ki, bu üzdən bir çox ölkələrdə quru süddən istifadə qadağan edilib. Yüksək təzyiq altında homogenləşdirmə də heç də xeyirli proses hesab olunmur. Bundan başqa, qurudulma zamanı südün tərkibindəki vitaminlərin bir çoxu məhv olur ki, getdikcə daha çox insan bu səbəblə quru süddən istifadəni dayandırır.

Quru südün reputasiyasını zədələyən daha bir faktor onun saxtasının kütləvi şəkildə istehsalıdır - belə saxta məhsulun tərkibində xam südün miqdarı cüzi səviyyədə olur: əsasən soya, nişasta və şəkər qarışığından ibarət olur. Hazırda bütün dünyada belə saxta quru süd istehsalı aktual problemlərdən biri hesab olunur.

S.Eyyubovun dediklərindən belə məlum olur ki, ölkəyə gətirilən quru südə burada ucuz yağlar qatılmaqla keyfiyyətsiz məhsul əldə edilir. Təsəvvür etmək çətindir ki, xaricdə istehsal edilən saxta quru süd burada da əlavə saxtakarlığa məruz qaldıqda, insan oqranizmi üçün nə qədər təhlükəli məhsul əldə olunur.

### İdxal və istehsalda keyfiyyətə necə nəzarət olunur?

Azərbaycanda Qida Təhlükəsizliyi Agentliyi tərəfindən 2018-ci ildə idxal olunan süd və süd məhsullarına dair baytarlıq tələbləri müəyyənləşdirilib. Bu tələblərə əsasən ölkəyə məhsulun ixraca tədarük edilməsi haqda ixracatçı ölkənin mərkəzi dövlət baytarlıq xidmətinin icazəsinə malik və onun daimi nəzarətində olan, süd emalı müəssisələrində istehsal edilmiş, yoluxucu heyvan xəstəliklərindən rəsmi qaydada azad təsərrüfatlardan olan sağlam heyvanlardan alınmış süd və süd məhsullarının idxalına icazə verilir. Süd məhsullarının istehsalı üçün istifadə olunan süd insan sağlamlığı üçün təhlükəli olan patogenli mikroorqanizmlərin məhv edilməsi üçün kifayət qədər termiki işləmələrdən keçirilməlidir. Tədarük edilən süd məhsulları nəticədə həyat qabiliyyətinə malik patogenli floranın olmamasına zəmanət verən təkrar emal prosesinə məruz qalmalıdır. Süd məhsulları ixracatçı ölkənin səlahiyyətli dövlət xidməti tərəfindən insanların qidaya istifadəsi və məhdudiyyətsiz azad satış üçün yararlı olması kimi tanınmalıdır.

Süd məhsullarının idxalı yalnız AQTA-dan icazənin alınmasından sonra mümkündür. AQTA-dan sorğumuza cavab olaraq verilən məlumata görə, ölkəmizdə süd və süd məhsullarında pensilin, streptomisin, levomisetin, tetrasklin qrupu antibiotiklərinə nəzarət edilir. Bundan əlavə, süd və süd məhsullarının keyfiyyətinə dair 23 milli standart hazırlanaraq tətbiq olunur. Lakin qurum bildirir ki, süd və süd məhsullarına dair hər hansı keyfiyyət standartlarının tətbiqi könüllü xarakter daşıyır: ""Standartlaşdırma haqqında" Qanuna əsasən Azərbaycan Respublikasının dövlət standartları məcburi və tövsiyə olunan tələbləri nəzərdə tutur. Ərzaq məhsulları üçün dövlət standartları yalnız tövsiyə olunan tələbləri müəyyənləşdirir və həmin dövlət standartlarının tətbiqi könüllü xarakter daşıyır".

**Azərbaycana idxal edilən qida məhsulları gömrük ərazisinə daxil olunduqdan sonra daşıdığı risk səviyyəsinə uyğun olaraq ekspertizadan keçirilir:** "Həmin məhsullardan Agentliyin müfəttişləri tərəfindən nümunələr götürülərək, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarında müayinə edilir. Ekspertizanın nəticələri uyğun olduqda sahibkarlar məhsulları yerli bazarda sərbəst ticarət dövriyyəsinə daxil edə bilirlər".

**Qurumun Bakı regional bölməsinin rəhbəri Əkbər Əliyev**in "Yeni Müsavat"a dediyinə görə, yayda Lerik, Lənkəran, Şimal zonalarında reydlər keçirilib: "Məlum oldu ki, qəbul məntəqələri maya dəyərini aşağı salmaq üçün südün yağını alıb, ona bitki mənşəli yağlar əlavə edirlər. Bu faktlarla bağlı ciddi tədbirlər görüldü".

Ə.Əliyevin sözlərinə görə, İnzibati Xətalar Məcəlləsinin 220-ci maddəsi sanitariya qaydalarının pozulmasına görə, 289-cu maddə baytarlıq ekspertizasından keçməyən məhsulların istehsalı, satılmasın görə, 447-ci maddə istehlakçı hüquqlarının pozulmasına görə məsuliyyəti müəyyənləşdirir. Həmin maddələri pozan vəzifəli şəxslərə 200-2000 manat cərimə nəzərdə tutulur. Biz agentlik olaraq çalışırıq ki, keyfiyyətsiz məhsulun satışa çıxmasının qarşısını alaq, nəinki satışa çıxandan sonra kimisə cəzalandıraq. Bu məsələdə istehlakçılardan dəstək gözləyirik".

**S.Eyyubov isə çıxış yolunu istehsalçıların istifadə etdikləri xammalla bağlı məhsulun üzərinə düzgün məlumat yerləşdirməsində görür:** "İndi sərhədi bağlamaq, kvotalar qoymaq şərt deyil. İstehsalçılar məhsulun üzərində göstəricini düzgün göstərsinlər. Alıcı bilməlidir ki, piştaxtadakı mal spred yağdanmı düzəldilib, yoxsa təbii kərə yağındanmı? Quru süddənmi, yoxsa təbii süddənmi? Bunu bilən hər istehlakçı da cibinə görə seçim edəcək. Azərbaycanda hazırda alıcıya bu hüquq verilmir, çünki spred yağlardan hazırlanan məhsullar gizli şəkildə piştaxtaya çıxarılır".

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 195 (7365) 21 sentyabr 2019



# Ermənistanda etirazlar pik həddə - təcridxanada iğtişaşlar başladı

## Baş nazir verdiyi vədlərə əməl edə bilmir; ölkədə narazıların sayı sürətlə artır; **politoloq:** "Paşinyan Qərblə Rusiya arasında sıxılmış vəziyyətdədir..."

**Ermənistan hakimiyyəti hər gün yeni sürprizlərlə üzləşir. Ölkədəki etirazlar nəinki sәngimir, hətta günü-gündən daha geniş dairəni əhatə edir. Hətta baş nazir Nikol Paşinyanın sərsəm Qarabağ bəyanatları və utopik 2050-ci il vədləri (! - red.) də durumu getdikcə pisləşən erməniləri sakitləşdirə bilmir.**

Son məlumatlara görə, Ermənistanın Cermuk rayonunda və Qndevaz kəndində Amulsara qızıl yatağının istismarına etiraz olaraq tətil başlayıb. "Yeni Müsavat" erməni mediasına istinadən xəbər verir ki, bölgələrdəki məktəblər də tətilə qoşulub. Onlar Amulsarın yalnız dağ olduğunu, orada qızıl çıxarılması məqsədilə aparılan qazıntıların ekologiyaya ağır zərbə vurduğunu bildirib bu işlərə qon qoyulmasını tələb ediblər. Məlumata görə, İrəvanda da etiraz aksiyası keçirilib. Ekspertlər hesab edirlər ki, Amulsar məsələsi Paşinyan üçün çox ağır sınaqdır. Ermənistan hökuməti məsələyə dair yekun qərar qəbul etməsə də, Paşinyan mədənin fəaliyyətinin dayandırılması üçün qanuni əsasın olmadığını deyib.

Bu arada Paşinyan daha bir sürprizlə üzləşib. Belə ki, İrəvanın "Nubaraşen" təcridxanasında iğtişaş baş verib. Məlumata görə, iğtişaşa səbəb Ermənistanın Cinayət Məcəlləsində qanuni oğrularla *(düzəlişə əsasən, qanuni oğru adını daşıyan istənilən şəxs cinayət məsuliyyətinə cəlb ediləcək -* ***red.)*** bağlı edilən düzəliş olub (Axar.az). İğtişaşda ümumilikdə 115 məhkum iştirak edib. İğtişaşın yatırılması üçün təcridxana rəhbərliyi təkcə polis və Milli Təhlükəsizlik Xidmətinə yox, həmçinin qanuni oğrulara da müraciət edib.

Bu yerdə qeyd edək ki, Serj Sərkisyan hakimiyyətinin son aylarında da davamlı aksiyalarla yanaşı, qiyam baş vermişdi. Düzdür, N.Paşinyan o zaman polis alayını ələ keçirən qiyamçılarla ittifaq qurub, amma görünür bu, onun "yarasına" məlhəm olmayacaq. Paşinyanın komandası da dağılır. Bu günlərdə Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin (MTX) direktoru Artur Vanesyan baş nazir Nikol Paşinyanın siyasətini tənqid edərək istefa verdi. Ardınca Ermənistanın polis rəisi Valeriy Osipyanla hökumətin yollarının ayrıldığı xəbəri tirajlandı. Belə ki, Paşinyan qabaqlayıcı addım ataraq, prezident Armen Sərkisyana müraciət edərək polis rəisinin istefaya göndərilməsi məsələsini qaldırdı. Ermənistanda baş nazirin iştirakı ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. İclasda Ermənistan polisinin rəisi, general-mayor Valeri Osipyan istefa verib. O, Paşinyanla Təhlükəsizlik Şurasının iclasında sərt mübahisə etdikdən sonra ona istefa ərizəsini təqdim edib. Məlumata görə, Paşinyan qızıl yatağına gedən yolun açılmasını tapşırıb. Lakin Osipyan yolun açılmasına dair əməliyyatın asan keçəcəyinə inanmadığını və fəallara qarşı güc tətbiq etməyin müəyyən fəsadlar doğuracağını bildirib. Baş nazir isə bəyan edib ki, əgər polis rəisi bu işin öhdəsindən gələ bilmirsə, əməliyyatı polis qoşunlarının komandanı, general Vaqe Kazaryan həyata keçirəcək. Hansı ki, Kazaryanın Milli Təhlükəsizlik Xidmətinin direktoru vəzifəsinə namizədliyi nəzərdən keçirilir. Qızğın atmosferdəki söhbət Osipyanın istefa məktubu təqdim Ermənistan parlamentində isə aprel savaşının nəticələrini araşdıran komissiya var gücü ilə çalışır.

**Politoloq Elxan Şahinoğlu** hesab edir ki, bu, həbslərin çevrəsini genişləndirəcək: "Müdafiə Nazirliyi aprel savaşı ilə bağlı gizli məlumatları komissiyaya göndərir. Komissiyanın işinin nəticəsi olaraq həbslərin olacağını müdafiə naziri Tonoyan istisna etməyib. Paşinyan bu komissiyadan rəqiblərinə qarşı istifadə etməyi planlaşdırır, ancaq əldə ediləcək nəticələr baş nazirin özünün əleyhinə işləyəcək. Çünki rəqibləri arasında həbslərin sayı artdıqca Paşinyana qarşı müqavimət də güclənəcək. İnqilabın əks-inqilabı olur, Paşinyanın rəqibləri revanşa hazırlaşırlar".

**Politoloq Məhəmməd Əsədullazadə** isə "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda siyasi-iqtisadi və sosial problemlər həllini tapmadıqca, böhran davam edəcək: "Paşinyanın komandası artıq dağılmaq üzrədir. Çünki bu komanda qarşısında ölkəni böhrandan çıxaracağı və demokratik bir cəmiyyət quracağını söz vermişdi. Zaman keçdikcə vədlər reallaşmadı. Çünki bu ölkənin potensialı yoxdur və Rusiyanın forpostudur. Məhz Paşinyanın komandasında istefalar ilk növbədə Rusiyanın apardığı iş və Paşinyanın diktatorluğunun nəticəsidir. Komandası görür ki, Paşinyanla uzun yol mümkün deyil və populizmlə ölkə idarə olunur. Ona görə də erməni məmurlar "batan gəmi"dən qaçmağa başlayıblar".

Ekspert Paşinyanın həm ABŞ, həm də Rusiyadan şillə almasına da toxundu. Qeyd etdi ki, Paşinyan Avropdan və ABŞ-dan istədiyi siyasi və maliyyə dəstəyi alsaydı, təbii ki, bu istefalar olmayacaqdı: "Amma görünür, ABŞ və Avropadan dəstək yoxdur, Rusiya durmadan iqtidarın üstünə gəlir, ona görə də qopmalar baş verir. Ümumiyyətlə, Paşinyanın ölkəsində inkişaf etmiş bir cəmiyyət qurmaq planı plansız oldu. Xalq bir müddətdən sonra küçələr çıxıb, hesab soracaq. Artıq, Paşinyanın komandası təhlükənin qapıda olmasının fərqindədir. Moskva birmənalı şəkildə Paşinyanı qəbul etmir. Onun dəstək verdiyi başında Robert Köçəryanın dayandığı Qarabağ klanıdır. Deməç olar ki, Paşinyan Qərb və Rusiya arasında sıxılmış vəziyyətdədir".

Qeyd edək ki, Rusiya prezidenti Valdimir Putinin N.Paşinyanın görüş istəyini rədd etdiyi xəbəri yayılıb. Məlumata görə, Rusiya prezidenti Ermənistan paytaxtında keçirilməli olan Avrasiya İqtisadi Şurasının sammitində ölkənin baş naziri Nikol Paşinyan ilə görüşməyəcək.

M.Əsədullazadə bildirdi ki, Putinin Avrasiya İttifaqının sammiti çərçivəsində İrəvana gəlişi gözlənilsə də, onun Ermənistan baş naziri ilə rəsmi görüş keçirməməsi Paşinyan üçün soyuq duş effektidir: "Putin ona göstərmək istəyir ki, sən Ermənistan və Rusiya üçün arzuolunmaz şəxsən! Putin ona Köçəryana məktub yazmaqla mesajlar verdi. Görünür, Paşinyan bu mesajları qulaqardına vurdu. Belə çıxır ki, Putinin əsas planı Paşinyanı daxili auditoriyada pərt etməkdir. Məhz onunla görüşməməsi Paşinyana Rusiyanın mövqeyinin mənfi olacağın nümunəsidir. Tərəflər arasında ziddiyyət daha da mürəkkəbləşəcək və Rusiya ölkəyə iqtisadi təzyiqləri artıracaq".

****

"Hazırda rəsmi Bakı Ermənistan hakimiyyətinin siyasi arenada və cəbhədəki provokasiyalarına aldanmamalıdır. Nikol Paşinyan və onun Qərbdəki məsləhətçiləri Bakı üçün tələ hazırlayır". Bu sözləri Axar.az-a rus politoloq, PolitRUS ekspert-analitik şəbəkəsinin təsisçisi Vitali Arkov bildirib. Onun sözlərinə görə, Paşinyan açıq-aşkar öz sərsəm ritorikası və hərəkətləri ilə Bakını qıcıqlandırmağa çalışır: "Bu, onun planının başlanğıc hissəsidir. Nikolun planı. Sərsəm bəyanatlar, cəbhədə diversiyalar, müəyyən provokasiyalar. Azərbaycan bu diversiyalara cavab olaraq hərəkətə keçir. Ermənistan tərəfi itkilər verərək geri çəkilir. Bütün baş verənlər lentə alınır. Paşinyan və onun komandası ölkədə hərbi vəziyyət elan edir. Bütün mitinqlər, yürüşlər və digər siyasi etirazlar qadağan edilir. Nikolun siyasi səhvləri və uğursuzluqları, büdcə kəsirlərinin, acınacaqlı iqtisadi vəziyyət müharibənin ayağına yazılır", - deyə rusiyalı ekspert "Nikolun planını" açıqlayıb.

Arkovun sözlərinə görə, bu ssenari Paşinyanın planının birinci hissəsidir, ən çirkin və alçaq hadisələr isə "ikinci hissədə" baş tutur: "Ermənistan öz güclü lobbisindən istifadə edərək, bütün dünyada "işğalçı-təcavüzkar" damğasını öz üzərindən götürüb, Azərbaycana ötürür. Əlbəttə ki, yuxarıda qeyd etdiyimiz, müharibədən olan görüntüləri istifadə etməklə. "Azərbaycanlılar vəhşidir", "Yazıq ermənilər belə öldürüldü", "Yeni erməni soyqırımı" başlıqlı məqalələr ən mötəbər dünya dərgilərinə sifariş olunur. Rusiya və KTMT ölkələrinə sərt ittihamlar irəli sürülür: "Niyə dəstək olmadınız?" Ermənistan rəsmi olaraq KTMT-ni tərk edir. Daha sonrakı mərhələdə Minsk Qrupu həmsədrləri və dünya ictimaiyyəti Bakını müharibəni dayandırmağa çağırır. Plan üzrə Azərbaycan Silahlı Qüvvələri bu ana qədər Qarabağın ətrafındakı 7 rayonu azad edir. Yeni atəşkəs müqaviləsi bağlanır, Ermənistan "işğal altından" xilas olunmuş, hamının dəstəyinə ehtiyacı olan bir ölkə imicini qazanır. "Artsax özünü müdafiə edə bilmədi" deyib, Dağlıq Qarabağı Ermənistana birləşdirir. Qərbdən "yazıq" statuslu İrəvana böyük vəsaitlər axıdılır. "İşğalçı-təcavüzkar" damğası atılır, iqtisadiyyat bərpa olunur. Paşinyan isə Qarabağı Ermənistana birləşdirən "qəhrəman" kimi tarixə düşür", - rusiyalı ekspert bildirib.

Politoloq qeyd edib ki, Azərbaycan lideri İlham Əliyevin Qarabağı bir güllə atılmadan qaytara biləcək daha uğurlu planı var və Nikolun planından fərqli olaraq, hazırda hər şey Bakının ssenarisi ilə gedir.

Paşinyanın belə bir planı olması barədə artıq bir müddətdir erməni və rusiyalı politoloqların iddiasına rast gəlmək mümkündür.

****

**Belə bir durumda Qarabağ danışıqlarının növbəti raundu barədə məlumat yayılıb. Bildirilir ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri BMT Baş Assambleyası çərçivəsində görüşəcəklər. Lakin bir çox ekspertlər hesab edir ki, Nikol Paşinyanın "Qarabağ Ermənistanındır, nöqtə" bəyanatından sonra danışıqlara getməyin heç bir mənası yoxdur. Ola bilsin Paşinyan ölkə daxilindəki böhranlı vəziyyətdə cəbhədə də silahların işə düşməsinin fəlakətlərə gətirib çıxaracağını anladığı üçün danışıqlara gedir. Amma ən azı nazirlərin görüşünədək o, Xankəndidəki sərsəm bəyanatına düzəliş etməlidir.**

# S-400, yoxsa "Patriot"?

## Toğrul İsmayıl: "S-400 sistemləri həm də maddi baxımdan Türkiyə üçün sərfəli variant oldu"

**Səudiyyə Ərəbistanının "Abqaiq" neft terminalına edilən hücum həm də silah müzakirələrinə səbəb olub. Söhbət terminala edilən hücumun qarşısının alınmamasından, daha doğrusu alına bilməməsindən gedir.**

Məlum olduğu kimi, sentyabrın 18-də Səudiyyə Ərəbistanı Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi, polkovnik Türki əl-Maliki keçirdiyi mətbuat konfransında deyib ki, terminallara 18 pilotsuz aparat və 7 raket hücum edib. Ər-Riyad bu silahların İran istehsalı olduğunu bildirib.

Hazırda bu məsələ regional gərginliyi yüksək həddə çatdırmaqla yanaşı silah müzakirələrinə də səbəb olub. Söhbət Hava Hücumundan Müdafiə (HHM) sistemlərindən gedir. Məsələ ondadır ki, Səudiyyə Ərəbistanı ərazisində 6 ədəd ABŞ istehsalı olan "Patriot" zenit-raket kompleksləri var. Bir "Patriot" batareyasında bir radar sistemi, bir komanda qərargah mərkəzi, bir generator qrupu və hər birində 4 raket quraşdırılmış 5 ədəd atəş-buraxılış qurğusu var.

Qeyd edək ki, 1984-cü ildən ABŞ ordusunun inventarında olan "Patriot" qurğuları bir neçə döyüş əməliyyatında, o cümlədən birinci və ikinci İraq müharibələrində istifadə olunub. "Patriot" raketləri Yaponiyanın Mitsubişi kompaniyasının lisenziyası ilə istehsal olunur. Hazırda ABŞ, Yaponiya, Almaniya, Hollandiya, İspaniya, İsrail, Küveyt, Səudiyyə Ərəbistanı, Tayvan və Yunanıstan ordularında mövcuddur.

Qeyd edək ki, illik hərbi büdcəsi 68 milyard dollar olan Səudiyyə Ərəbistanı ABŞ-dan ən çox silah alan ölkədir. Ötən il krallıq ABŞ-da 15 milyard dollar dəyərində 44 ədəd HHM batareyası satın alınması anlaşması imzalayıb.



Ancaq bu qədər müasir silah və texnika Yəmən husilərinin göndərdiyi pilotsuz aparatlar və raketlərin qarşısını ala bilməyib. Bu isə ABŞ silahları ilə bağlı tənqidlərə səbəb olub. Rusiya prezidenti Vladimir Putin də Ankarada sentyabrın 16-da keçirilən sammit zamanı bu faktı qabardıb və Səudiyyə hökumətinə Rusiyadan daha etibarlı S-400 HMM sistemləri almağa çağırıb. Putinin sözlərindən belə məlum olub ki, S-400-lər bu hücumun qarşısını ala bilərdi.

Putinin tərifədiyi S-400 sistemlərinin alternativlərindən, daha dəqiqi "Patriot"dan hansı üstünlükləri var? Qeyd edək ki, 2007-ci ildə Rusiya ordusunun inventarına daxil edilmiş S-400 "Triumf" zenit-raket kompleksləri hazırda dünyada bu silahlar arasında birinci hesab olunur - baxmayaraq ki, S-400-lər silah və texnikalar üçün mühüm faktor olan döyüş sınağından keçməyib. S-400 HHM 2007-ci ildən Rusiya ordusunun istifadəsindədir. Orta və uzaq məzilli hava hədəflərini məhv etmək üçün nəzərdə tutulan HHM sistemləri 250 kilometrə qədər məsafədə aerodinamik hədəfləri vurmaq imkanına malikdir. Eyni zamanda 60 kilometrə qədər məsafədə ballistik hədəfləri vura bilir. Müvafiq olaraq "Patriot"da bu 160 və 45 kilometrdir.

S-400 27 kilometr yüksəklikdə hava hədəflərini məhv etmək qabiliyyətindədir. Bu, ABŞ "Patriot"larından 3 kilometr çoxdur. S-400-ün maksimum hədəf vurma imkanı 400 kilometrdir. S-400 5 dəqiqə ərzində quraşdırılaraq aktiv vəziyyətə gətirilir və 600 kilometr radiusda ərazini nəzarətdə saxlaya bilir. "Patriot"da isə bu 30 dəqiqə və 150 kilometr radiusdur. Bundan başqa S-400 eyni anda 160 hədəfi aşkarlamaq və 72 hədəfi isə nişan ala bilir. S-400 raketlərinin sürəti 4800 metr/saniyədir.

Hazırda NATO-nun 3 ölkəsi - Yunanıstan, Bolqarıstan və Slovakiyada S-400 HHM sistemləri var, ancaq Türkiyə S-400 sistemi almış ilk ölkə olacaq. Bundan başqa Çin, Hindistan, Səudiyyə Ərəbistanı və Bəhreyn də S-400 almaq üçün Rusiya ilə danışıqlar aparır.

**Türkiyədə yaşayan politoloq Toğrul İsmayıl** deyir ki, Türkiyənin Rusiyadan hava hücumundan müdafiə sistemləri alması zərurətdən doğub. Türkiyənin Yaxın Şərqin ən qaynar bölgəsində yerləşdiyini xatırladan politoloq deyir ki, qonşu ölkələrdən fərqli olaraq Türkiyənin hələ də mükəmməl HHM sistemləri olmayıb. Halbuki qonşu ölkələrdə bu sistemlər neçə illərdir ki, var idi. Politoloq deyir ki, son bir neçə ilə qədər Türkiyənin hava sərhədlərini məhz NATO müttəfiqi olan ölkələrin HHM sistemləri qoruyub. Xüsusən də Yaxın Şərqdə münaqişələr şiddətlənəndə ABŞ-la yanaşı Almaniya və Hollandiya da Türkiyənin Suriya ilə sərhədə yaxın ərazilərinə "Patriot" batareyaları yerləşdirib: "Ancaq bu sistemlər daimi deyildi. Bir neçə il əvvəl ölkələr arasında münasibətlər soyuqlaşanda alman və hollandların zenit qurğularını yığışdırıb ölkələrinə qayıtması Türkiyəni özünə HHM almaq üçün axtarışlara başladı. Bir neçə ölkə ilə danışıqlar aparıldı. ABŞ-la, daha sonra Çinlə və eləcə də Rusiya ilə HMM alınması üçün danışıqlar aparıldı. Amma bu danışıqlar baş tutmadı. Nəhayət, 2017-ci ildə Rusiya ilə anlaşma baş tutdu və bildiyiniz kimi, artıq S-400 sistemlərinin Türkiyəyə verilməsinin ikinci mərhələsi də yekunlaşıb. Ehtimal olunur ki, gələn ilin aprelində bu sistemlər Türkiyədə aktiv vəziyyətə gətiriləcək. Ancaq Türkiyənin bütün hava məkanını qorumaq üçün bir neçə əlavə batareyalara ehtiyac var. Lakin eyni zamanda, Türkiyə özünün HHM sistemlərini yaratmaq istəyir. Bununla bağlı da İtaliya və Fransa ilə birgə fəaliyyətlər həyata keçirilir".

**Türkiyənin S-400 almasının səbəblərinə gəlincə, Toğrul İsmayıl xatırladır ki, Ankaranın NATO müttəfiqi olan ABŞ ona "Patriot" sistemlərinin satışını yasaqladığı üçün Ankara Rusiyaya üz tutdu**: "S-400 sistemləri həm də maddi baxımdan sərfəli variant oldu. Çünki "Patriot"la müqayisədə S-400 alınması Türkiyə üçün 1 milyard dollara qənaət etmiş oldu. Amma onu da xatırlatmaq lazımdır ki, Türkiyə heç zaman ABŞ-dan "Patriot" almayacağını deməyib. Rəsmi səviyyədə hər zaman bəyan olunub ki, Ankara ABŞ-dan "Patriot" almağa hazırdır. Digər tərəfdən, S-400 nə qədər yaxşı sistem olsa da, NATO sistemlərinə qoşula bilmədiyi üçün Türkiyə bunu muxtar səviyyədə istifadə etməli olacaq. Buna görə də Türkiyə indi NATO ölkələrində istehsal olunmuş HHM almalıdır. Amma onu da qeyd edim ki, Türkiyə hazırda öz HHM sistemlərini yaratmaq üçün çalışmaları davam etdirir".

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Mübariz zirvəsi və yeni Nuru paşalar

**Böyük Çingiz Aytmatovun "Gün var əsrə bərabər" əsərini xatırladım. Təsadüfən yox, Bakı-Naxçıvan-İğdır marşrutu ilə gedib-gəldiyim zaman. Doğrudan da əsrə bərabər gün idi. Sıradan bir səfər deyildi, yaddaşlarda, tarixdə qalacaq tədbirlərdə iştirakçı olduq, dostluq-qardaşlıq nümunələrinə şahidlik etdik, düşmənə göz dağı olan zirvədə bayraqlarımızı dalğalandırdıq.**

**Elşad PAŞASOY**



Bakı şəhərinin işğaldan azad olunmasına həsr edilmiş yürüş və konfrans barədə Musavat.com-da geniş reportajlarımızı dəyərli oxucularımız yəqin ki, izləyib. Amma o qədər geniş, həm də gözəl təəssüratlar var ki...

Bu yerdə xatırladım ki, İğdır Türkiyə qədər bizə də çox yaxın, doğmadır. Hara getdiksə, İrəvandan, Vedidən, digər tarixi Azərbaycan torpaqlarından dədə-babası didərgin düşmüş qan qardaşlarımızla görüşdük, nisgillərini dinlədik. Hər gün səhər Araz çayının o tayına, gedib-gələ bilmədikləri ana yurda baxmağın ağrısını yaşayırlar, Ağrı dağının ətəyində... Amma eyni zamanda qürurludurlar, Türkiyə kimi qos-qocaman dövlətin vətəndaşı olduqlarına görə! Qürurludurlar "Ümid" körpüsündən Sədərəyə, oradan Naxçıvan Muxtar Respublikasına, Azərbaycana rahat gedib-gələ bildiklərinə görə! Həm də sentyabrın 1-dən artıq vizasız! Həm də bu insanlarda inam var: bir gün nəinki Qarabağın, İrəvan daxil, Qərbi Azərbaycanın da sahibi olacağımıza! Belə insanlarımızla görüş, onların sevincinə, nisgilinə şərik olmaq özü hadisədir. Yaşadırlar tariximizi, erməni diasporunun saxta yalanlarını alt-üst edəcək o qədər faktlar sadalayırlar... Hər birisinin taleyi bir kitaba sığmaz. Birinin barəsində ayrıca: 3 oğlunu erməni vəhşətindən xilas etmək üçün Arazdan keçirmək istəyən atanın müsibətini. Sel bir yaşlı uşağı atanın əlindən alıb aparır, ata saatlarla sahilboyu yüyürür balasının meyitini də olsa, tapsın deyə...

İğdır belə müsibətli talelərlə doludur. Təəssüflər olsun ki, Azərbaycan türklərinin sayı bölgədə getdikcə azalır. Bu, çox ciddi məsələdir. Sədərəklə İğdır vilayətini, geniş mənada isə Azərbaycanla Türkiyəni birləşdirən körpü-qapı başqalarının ixtiyarına verməl olmaz! Günün birində PKK da bu bölgədə hərəkətə keçə bilər deyə, narahatlıq var.

Azərbaycanlılar Türkiyənin mərkəzi şəhərlərinə üz tuturlar, kürdlər isə daha çox Van vilayətindən buraya köçür, mülk alır, Ağrının ətəyində məskunlaşırlar. Zaman-zaman Türkiyə və Azərbaycana qarşı xain planlar işə salınır, kim bilir, bəlkə elə bu da növbəti plana daxildir. Bura həm də ona görə həssas nöqtədir ki, qarşıda başı qarlı Ağrı dağına həsrətlə baxan Ermənistan var! Gerbində Ağrı dağının əksi olan, Konstitusiyasında Türkiyə ərazilərinə iddianın əks olunduğu bədnam ölkə! Allah eləməmiş, burada qarışıqlıq olsa, düşmən üçün unikal vəziyyət yaranar. Onsuz da PKK-erməni əməkdaşlığı haqda kifayət qədər faktlar var.

Belə bir durumda Ağrı vilayətinin Tuzluca qəsəbəsinin "başı üstündəki" əzəmətli Təkaltı dağına yürüşün edilməsi, "bir millət, iki dövlət"in 10 metrlik vahid bayrağının sal qayalar üzərində qaldırılması, Türkiyə-Azərbaycan qardaşlığı, Qarabağın azadlığına yönəlik fikirlərin, çağırışların səslənməsi çox mühüm hadisə idi. Qeyd edim ki, bu dağın üzərindən Ermənistanın bir hissəsi əl içi kimi görünür və yəqin ki, hədəf hər kəsə bəllidir. Özü də zirvələrdən biri Milli Qəhrəmanımız Mübariz İbrahimovun adını daşıyır!

Yüksəkliyə doğru dayanmadan irəliləyən dəyərli diplomatımız Hulusi Kılıçı, Türkiyədəki baş konsulumuz Nuru Quliyevi, İğdır Azərbaycan Dil, Tarix və Mədəniyyət Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyi başqanı Ziya Zakir Acarı, BDU VƏ AMEA-nın dəyərli alimləri - Arzu Məmmədova və İlqar Niftəliyevi, Azərbaycanın İğdırdakı gənc diplomatları Tural bəyi, Behbud bəyi, gənc türkçü İlteriş Taşkınsunu, həmkarlarımız Sabir Şahtaxtlını, Günel Ələsgərovanı və digərlərini zirvəyə doğru yorulmaq bilmədən irəliləyən görəndə çox qürurlandım. Yürüş günü çox isti idi, amma bir içim su da istəmədən hər kəs zirvəyə qalxdı, Türk düşmənlərinə mesaj vermək, Mübariz zirvəsini ziyarət üçün! Özü də hər il, 15 sentyabr günü Təkaltı yürüşü olacaq, Bakının azadlıq günü!

Bu aksiyanın baş tutmasında Azərbaycan və Türkiyə dövlətlərinin təmsilçilərinin dəstəyi oldu. Gözəl təşəbbüsə yüksək səviyyədə dəstək verildi. Dəyərli Hulusi bəyin köksündə nə boyda Azərbaycan sevdasını gəzdirdiyinə bir daha şahidlik etdik. Hara getdisə, "Türkiyə-Azərbaycan" dedi, fərq qoymadı. Təkcə Bakıda yox, Moldovada səfir işləyəndə də... İndi təqaüddə olsa da, yorulmadan çalışır, Qarabağın azadlığı uğrunda döyüşə belə, hazırdır. Necə ki, 101 il öncə Nuru paşa və əsgərləri Azərbaycanı xilas üçün gəldilər, bu gün də Hulusi Kılıçın simasında yeni Nuru paşalar var bizimlə çiyin-çiyinə döyüşməyə hazır!

# “İnterpol”un axtardığı “Akula Akif” Bakıda 7 milyon dollar qazandı

## Məhkəmə Eldar Mahmudovun Azərbaycandan qaçan ən sadiq adamının xeyrinə qərar çıxardı

**Səbayel Rayon Məhkəməsi sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun ən sadiq adamlarından biri, hazırda “İnterpol” xətti ilə axtarışda olan “Akula Akif” ləqəbli Akif Mustafayevin “Mars-M” şirkətinə qarşı iddiasını təmin edib. Bu həmin “Akula Akif”dir ki, Eldar Mahmudov vəzifəsindən çıxarılandan dərhal sonra Azərbaycandan qaçmışdı. Hazırda Fransada gizləndiyi ehtimal olunan Akif Mustafayev özünü iş adamı kimi tanıtsa da, əslində onun əsas vəzifəsi imkanlı iş adamları haqda MTN-dəki mütəşəkkil qruplaşmaya dosye toplayıb çatdırmaqdan ibarət olub.**

“Akula”nın sxeminə əsasən, MTN həmin iş adamları barədə dosyeləri aldıqdan sonra onları izləyib və həbs edirdi. Bu zaman “Akula” MTN-dəki mütəşəkkil qruplaşmanın qarmağına düşmüş iş adamına öz xidmətlərini təklif edir və onlardan iri məbləğlərdə pulun alınıb Eldar Mahmudova çatdırılmasını, beləliklə, girovun “xilas edilməsini” həyata keçirirmiş.

Lakin proses bununla da yekunlaşmırdı. “Akula” MTN-dən “xilas etdiyi” iş adamlarının biznesinə gələcəkdə bu kimi problemlərdən sığortalanmaq üçün “krışalıq” edirdi və onların biznesinə 25-30 faiz payla şərik olurmuş. Onun “Mars-M” şirkətində 25 faizlik paya hansı şərtlər daxilində sahib olduğu bilinmir. Belə məlumatlar var ki, Akif Mustafayev “Mars-M” şirkətinin təsisçiləri olan Bəşirov qardaşlarının qaynıdır. Hazırda qardaşlardan Mərhəmət Bəşirov həbsdədir. Arif Bəşirov isə dünyasını dəyişib. Akif Mustafayevin adından Səbayel Məhkəməsinə sübut kimi təqdim edilən, onun “Mars-M” şirkətinin 25 faizlik payını almasına dair kağızda isə Arif Bəşirovun adı var. Həmin kağıza görə Arif Bəşirov



şirkətin 25 faizini Akif Mustafayevə 7 milyon 500 min dollara satıb.

Qardaşlardan Loğman Bəşirov isə mətbuata açıqlamasında alqı-satqıdan məlumatsız olduğunu, məhkəməyə sənəd kimi təqdim olunan kağızların heç bir hüquqi qüvvəsinin olmadığını deyib. Bundan başqa şirkətin hesabına 2009-cu ildən bu yana Akif Mustafayevin 7 milyon 500 min dollar köçürülmədiyini qeyd edib.

Mərhəmət Bəşirovu həbsə aparan məsələ haqda da maraqlı məlumatlar var.

“Mars-M” şirkətinin Bakının Səməd Vurğun küçəsi, 120 ünvanında inşa etdiyi “Yasmin” biznes mərkəzi bu gün də məhkəmələrdə mübahisə obyektidir. Belə ki, bina inşa olunandan sonra Mərhəmət Bəşirov oradakı mağazaları 22 nəfər iş adamından ümumilikdə 17 milyon dollar almaqla onlara satıb. İş adamları orada mağazaları özlərinin bizneslərinə uyğunlaşdırıb işə başlayandan bir qədər sonra məlum olub ki, Mərhəmət Bəşirov ümumilikdə ticarət mərkəzini “Xalq Bank”a girov qoymaqla külli miqdarda pul götürüb və pulu banka qaytarmayıb. Bank məhkəməyə müraciət etməklə kreditin təminatı olan ticarət mərkəzinin satılmasını və əldə olunan vəsaitin kredit məbləği il əvəzləşdirilməsini istəyib. Məhkəmə iddianı təmin edib. Lakin çıxarılan hökmdə iş adamları Afət Ağazadənin, Sahib Quliyevin, Azər Mahmudovun, Akif Mahmudovun, Fuad Ramazanovun, Natəvan Bağırovanın, Əliağa Məmmədovun, Anar Hüseynovun, Zülfüqar Kazımovun, Yalçın Məlikovun, Adil Məmmədovun, Ədalət Zamanovun, Vüqar Həsənovun, Elçin Əliyevin, Qalıb Məmmədovun pullarının hansı hesabdan qaytarılmasına aydınlıq gətirilməyib.

İş adamları ölkə rəhbərliyinə ünvanladıqları müraciətlərdə yazırlar ki, “Mars-M” firmasından (VÖEN 1500418111) Bakı şəhəri, Nərimanov rayonu, S.Vurğun küçəsi, 120 ünvanında inşa etdiyi zirzəmi və 5 mərtəbədən ibarət qeyri-yaşayış binasından, daha çox 2009-cu il tarixdə olmaqla, 2009-2013-cü illərdə müxtəlif ölçülü qeyri-yaşayış sahələrinin milyonlarla qiymətləndirilən dəyərini tam ödəməklə alıblar.

“Bir çoxumuz həmin qeyri-yaşayış sahələrini, külli miqdarda pul xərcləyərək təmir etdirmişik və öz fəaliyyətimizlə bağlı təyinatına uyğun istifadə etmişik. Lakin, təəssüf ki, ”Mars-M" firmasının və “Xalq Bank” ASC-nin bəzi vəzifəli şəxslərinin çirkin niyyətlə qurduqları və icra etdikləri plan nəticəsində hazırda əmlakımızdan məhrum olmuşuq. Əmlakı faktiki olaraq ələ keçirmiş “Xalq Bank” ASC binaya mühafizə yerləşdirməklə, bizim sahələrimizə girişimizə, qanuni F97748EF BD18 4F0B 8C7E C3CFF5522C9Fəsaslarla aldığımız əmlakımızdan təyinatına uyğun istifadə etməyimizə mane olmaqla yanaşı, illər əvvəl “Mars-M” firması ilə qurduğu kredit-ipoteka oyununun son mərhələsi olan məhkəmə mərhələsində əmlakımızı ələ keçirməsini leqallaşdırmaqla məşğuldur. Onlarla vətəndaşın milyonlarla dəyərində olan əmlakından məhrum olmasına görə isə, yalnız bir nəfər - “Mars-M” firmasının təsisçisi Mərhəmət Bəşirov cinayət məsuliyyətinə cəlb edilməklə, guya qanunsuzluğa hüquqi qiymət verildi və qanunsuzluq etmiş şəxs məsuliyyətə cəlb olundu görüntüsü yaradıldı. Bu da “Xalq Bank” ASC-nin qurduğu oyunun bir hissəsidir: cinayət işi məhz onun müraciəti əsasında başlanılıb və qanunsuzluğun bir tərəfi olmasına baxmayaraq, özünü zərərçəkmiş şəxs (?!) qismində tanıda bilib. Əslində, həm qanunsuzluğa düzgün hüquqi qiymət verilməyib, həm də bu qanunsuzluğu etmiş “Mars-M” firmasının digər vəzifəli şəxsləri, o cümlədən “Xalq Bank” ASC-nin aidiyyəti vəzifəli şəxsləri məsuliyyətdən tamamilə kənarda qalıblar" -deyə iş adamları müraciətlərində yazırlar.

Maraqlıdır ki, Səbayel Rayon Məhkəməsində bu gün də Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan Akif Mustafayevin iddiası qəbul edilərkən, iddiaya baxılarkən və nəhayət onun xeyrinə qərar verilərkən bütün bunlar gözə alınıbmı?

Axtarışda olan şəxsin Azərbaycan məhkəməsində qalib gəlməsi çox maraqlı mətləblərdən xəbər verir...

❑ **E.HÜSEYNOV, “Yeni Müsavat”**

---

**“Qardaşımın Qaraçuxurda mağazası var idi”**

## İŞİD-ə 500 min dollar göndərməkdə suçlananların işi

**Terrorçuluğu maliyyələşdirməkdə təqsirləndirilən şəxslər növbəti dəfə hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində terrorçuluğu maliyyələşdirməkdə təqsirləndirilən Ağayev İlqar Ərşad oğlu, İbrahimov Sahil Fəhrad oğlu, Məmmədov Namiq Natiq oğlunun cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs Sahil İbrahimov ifadə verib. O deyib ki, qardaşı Samir Suriyada olan zaman bir neçə dəfə ona zəng edib: “Mənə deyirdi ki, sənə zəng edib pul verəcəklər. Qardaşımın Bakıda alacaqları var idi. Həmin pulları götürürdüm. Həm də sədəqə pulları var idi. Mən də başqa şəxslərə vermişəm. Bir hissəsini də qardaşıma göndərmişəm. Qardaşım Suriyaya bir neçə dəfə gedib. Axırıncı dəfə 2015-ci ildə gedəndə "stop" qoyulduğu üçün geri qaytarıldı. Sonra necə getdiyini bilmirəm. Uzun müddət bizimlə əlaqə saxlamadı. Təxminən 1 ildən sonra zəng elədi".

Sahil İbrahimov deyib ki, qardaşının Suriyaya getməsinin qarşısını almağa da çalışıb. Buna görə də hüquq-mühafizə or-



qanlarına müraciət edib.

**Suallara cavab verən Sahil İbrahimov qardaşının pulları haradan almasına belə aydınlıq gətirib:** “Qardaşımın Qaraçuxurda mağazası var idi. Sonra maşınını da satdı. Nisyə mal verdiyi adamlar çox idi. Onlar pulu mənə verirdi”.

Sahil istintaqda ifadəsinin təhrif olunduğunu deyərək, bildirib ki, indi məhkəmədə dedikləri həqiqətdir.

**Daha sonra təqsirləndirilən Namiq Məmmədov ifadə verib. O deyib ki, digər təqsirləndirilən şəxsləri tanımır. O, bir neçə nəfərdən pul aldığını, ayrı-ayrı şəxslərə verdiyini deyib. N.Məmmədov bildirib ki, həmin pullar sədəqə olub**: “Məndən xahiş edirlər, götürüb başqa adamlara çatdırmışam. Moskvadan və başqa ölkələrdən gələn pullar da sədəqə olub. Bakıda ehtiyacı olan ailələrə vermişəm.

Hakim digər təqsirləndirilən İlqar Ağayevə ifadə verməyi təklif edib. Lakin əvvəlki proseslərdə də olduğu kimi bu dəfə də İlqar özünü anormal şəkildə aparıb, deyilənləri başa düşmədiyini deyib.

İlqar hakimin “İfadə vermək istəyirsən? Digər şəxslər düz danışır?” kimi suallarına əvvəlcə gülərək cavab verib. Sonra isə deyib ki, onunla birlikdə həbs edilən şəxslərin danışdıqlarını başa düşmür.

“Nə danışım? Gəlim də, gəlim ora” - deyən İlqar əlindəki topu oynadaraq, gülərək deyib. Hakim təqsirləndirilən İlqarın istintaqdakı ifadəsini elan edib. Məlum olub ki, İlqar həmin ifadəsində təqsirləndirilən Sahili və onun qardaşı Samiri tanıdığını deyib.

“Onlarla çay evində təsadüfən tanış olduq. Bir məclisdə idik. Onlarla əqidəmiz eyni idi. Buna görə də mütəmadi görüşməyə başladıq. Sonra onlarla dost olduq” deyən İlqar Suriyaya getdiyini də təsdiqləyib.

İlqar Ağayev ifadəsində Suriyaya pul göndərdiklərini, həmin məbləği ayrı-ayrı şəxslərdən aldıqlarını deyib.

**Məhkəmə araşdırması davam etdirilir.**

Təqsirləndirilən İlqar Ağayevin vəkili ekspertiza keçirilməsini və müdafiə etdiyi şəxsin anlaqsız olub-olmamasını aydınlaşdırılmasını istəyib. Vəkil bildirib ki, müdafiə etdiyi şəxsin ifadə verməsi mümkün deyil.

İttihamda göstərilir ki, təqsirləndirilən şəxslərdən Sahil İbrahimovun qardaşı Samir Suriyada vuruşub. O, 2016-cı ilin avqustunda Gürcüstan vasitəsilə Türkiyəyə, oradan da Suriyaya gedib. İttihama görə, Samir Suriyaya gedəndən sonra qardaşı, eləcə də əhli-sünnə məzhəbinin vəhabi təriqətinə etiqad edən başqa tanışlarıyla əlaqə saxlayıb.

O deyib ki, Suriyada onunla birlikdə vuruşan azərbaycanlıların və başqa əcnəbilərin İsveç, Rusiya, Norveç, Finlandiya, Almaniya və başqa ölkələrdə yaşayan yaxınlarıyla əlaqə saxlasınlar. Onların göndərəcəkləri pulları toplayıb Suriyaya yollasınlar.

İttihama əsasən, pul göndərişləri banklar vasitəsilə həyata keçirilib - xarici ölkələrdən Bakıya, buradan Türkiyəyə, oradan da Suriyaya göndərilib.

“2017-ci ilin sentyabrından 2018-ci ilin fevralına qədər Sahil İbrahimov bir neçə dəfəyə 210 min manata yaxın, İlqar Ağayev 135 min dollar, 2018-ci ilin mart-aprel aylarında isə onlar birlikdə yenə 135 min dollar pul göndəriblər” - ittiham altında göstərilir.

Məlumata görə, təqsirləndirilən Namiq Məmmədov bu prosesə sonradan qoşulub. 2018-ci ilin may-iyun aylarında onun adına Rusiya, Qırğızıstan, İspaniyadan 21 dəfəyə 40 min manata yaxın pul göndərilib. O da həmin pulları çıxarıb İlqar Ağayevə verib. İlqar da bu vəsaitləri toplanan başqa pulların üstünə qoyub və Sahil İbrahimovla birlikdə Türkiyəyə mayda 50 min dollar, iyunda da 75 min dollar pul göndəriblər.

**Elan olunmuş ittihamla Namiq Məmmədov və Sahil İbrahimov özlərini təqsirli bilməyiblər. İndiki mərhələdə geniş ifadə vermək istəməyiblər.**

❑ **İlkin MURADOV, Musavat.com**

YENİ MÜSAVAT
N 195 (7365) 21 sentyabr 2019

## Gənclər arasında yayılan xaç trendi - müasirlik, yoxsa missiya?

**Fazil Mustafa:** "Gənclər boyunlarından xaç yox, Quran assalar ağıllanacaqlar?"
**Kənan Rövşənoğlu:** "Xaç işarəsi sırf xristian simvoludur"
**Tural Turan:** "Kim necə istəyirsə, o cür də istifadə etsin"



Fazil Mustafa

**Son vaxtlar ictimaiyyətdə tez-tez qulağına xaç şəklində sırğa, sinəsinə boyunbağı taxan yeniyetmə və gənclərlə rastlaşırıq. Xristanlığın simvoli sayılan xaç şəklində aksessuarlardan istifadə yeni nəsil arasında sanki bir trendə çevrilib. Bəzən tanınmışların da bu cür aksessuarlardan istifadə etdiyinin şahidi oluruq.**

Onların bəziləri buna sadəcə aksessuar kimi yanaşdığını, görünüş xətrinə istifadə etdiyini bildirir və yaxud müasirliyi əsas gətirir. Bəs müsəlmanın xaç formasında sırğa, boyunbağı taxması nə dərəcədə doğrudur? Məsələnin kökündə hansısa gizlin missiya izi axtarmaq olarmı?

Mövzu ilə bağlı **millət vəkili Fazilı Mustafa** "Yeni Müsavat"a danışdı: "Bu cür aksessuarlardan istifadəni o qədər də anlamlı hesab etmirəm. Amma gənclərin fərqli yanaşması var. Məsələn, gənclər boyunlarından xaç deyil, Quran assalar ağıllanacaqlar və yaxud ağıllı görünəcəklər? Əlbəttə ki, bu bir modadır və cəmiyyət də hər zaman bayağı modalara meylli olub. Məsələn, görsəniz ki, gənclər aksessuar kimi kitab daşıyırlar, buna təəccüblənərsiniz. Yəni kitab daşımaq Azərbaycan gənci, cəmiyyəti üçün bir qədər təəccüblüdür. Xaç asma sadəcə gənclərin moda ilə ayaqlaşması ilə bağlıdır. Burada hansısa ideya görmürəm. Gənclər sadəcə maraqlı görünmək üçün sadə, primitiv yola əl atırlar. Gənclik dövründə belə şeylər olur. Ona görə də gənclik dövründə hər şeydə, davranışda məna axtarılmaz. Sadəcə, gənclərin elmlənməsi istiqamətində işlər aparmaq lazımdır. Bu zaman onlar daha yaxşı davranışlar nümayiş etdirəcəklər. Bu cür bayağılıq təkcə aksessuarlarda deyil, başqa sahələrdə də, məsələn, musiqidə də var. Gənclərin əksəriyyətinin dinlədiyi musiqiyə diqqət edəndə bunu görmək olur. Ona görə də belə şeylə çox da narahatçılıqla qarşılamaq lazım deyil".

**Dini ekspert Kənan Rövşənoğlu** isə məsələyə bu cür münasibət bildirdi: "Xaç xristianlığı simvolizə edən bir atributdur. Yəni bu atribut İsa peyğəmbərin çarmıxa çəkdiyini əks etdirir. Bununla da xaçı üzərinə taxan adam özünü xristian kimi təqdim edir. Doğrudur, bir çox hallarda gənclər, yeniyetmələr fərqinə varmadan hansısa filmin təsirindən bunu aksessuar kimi qəbul edir. Amma qeyd etdiyim ki, xaç işarəsi sırf xristian simvoludur. Bunun üçün də xaç taxan şəxsdən onun hansı məqsədlə istifadə etdiyini soruşmaq lazımdır. Bəlkə də şəxs dinini dəyişib və yaxud məqsədli olmadan aksessuar kimi istifadə edir".

**Gənc yazar Tural Turan** bu cür halların neqativ qarşılanmasının əleyhinə olduğunu bildirdi: "Fikrimcə, kimə necə yaxşıdırsa, xoşdursa o cür də aksessuarlardan istifadə edir və etsin. Məsələn, əgər müsəlman gənc xaç formasında aksessuar taxırsa bunu ancaq tolerantlıq kimi qəbul etmək olar. Niyə buna neqativ yanaşmalıyıq?"

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**



## Rusiyada axtarışda olan azərbaycanlı Bakıda tutuldu

**Rusiyada axtarışda olan şəxs Azərbaycanda saxlanılıb. Report-un xəbərinə görə, 1988-ci il təvəllüdlü Vaqif Mustafayev Bakı şəhərində hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən tutulub.**

V.Mustafayev Rusiya Cinayət Məcəlləsinin 111-ci maddəsi (qəsdən sağlamlığa ağır zərər vurma) ilə axtarışda olub.

**"Cənub zonasında erkən nikahlarla bağlı rəqəm artıq qorxulu deyil. Çünki bu göstərici Aran rayonlarında daha çox artıb". Bu sözləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin baş məsləhətçisi Aynur Veysəlova mətbuata açıqlamasında bildirib.**

# "Valideyn qızını satıb canını qurtarmaq istəyirsə, bu, cahilliyin bir növüdür"

**Deputat:** "Qızların təhsilə cəlb olunması üçün dövlət ciddi addımlar atmalıdır"

**Qurum əməkdaşının sözlərinə görə, bu gün erkən nikahlar Bakı kəndlərində də qeydə alınır:** "Araşdırmamıza görə, cənub zonasının bəzi ucqar kəndlərində son 10-15 ildə ali təhsil alan bir qız belə yoxdur. Bəzi bölgələrdə isə təhsil alan qızların sayı oğlanlardan çoxdur. Bunun da səbəbi həmin bölgələrdə oğlanların radikal dini qruplaşmaların təsiri altına çox düşməsidir".



A.Veysəlova bildirib ki, bu gün 15-17 yaşlı qadınların dünyaya gətirdiyi körpələrin sayı xeyli azalsa da, ötən ilin rəqəmləri (2129) heç də az deyil: "Çünki gərək 15-17 yaşında 3000-3500 qız qeyri-rəsmi nikaha girməlidir ki, onlardan da 2129 körpə dünyaya gəlsin".

*Bəs insanların erkən nikaha cəlb edilməsinin səbəbləri nədir? Cəmiyyət və dövlət erkən nikahların aradan qaldırılması üçün hansı addımları atmalıdır?*

Mövzu ilə bağlı **deputat Fazil Mustafa** "Yeni Müsavat"a danışıb. Deputat qeyd edib ki, problemin kökündə diplomlu ziyalılarının günahı dayanır: "Dəfələrlə dini cəhalətin nəticələrini gündəmə gətirəndə ən çox müqaviməti savadsız, cahil kütlədən deyil, savadsız diplomlu ziyalılardan alırıq. Beləliklə, nəticə budur ki, harada dini cəhalət genişlənirsə, orada nadanlıq, erkən nikah olmalıdır. Çünki həmin yerlərdə insanlar oxumaqla, elm qazanmaqla dəyişməyə, ağılla problemləri həll etməyə meylli deyillər. Mütləq hansısa vərdişin, gördüyünün təsir altına düşməklə yaşamağa meyllidirlər. Ağlı, zəkası olan insan hər şeyi, o cümlədən dini də, ata-anasının davranışını, hansısa çatışmamazlığı, hətta nədən yoxsul olduğunu sorğulayır. Bu cür sorğulama ənənəsi olmayan yerdə hamı özündən əvvəlki zəncirin dalınca gedir. Bu baxımdan da dəyişiklik baş vermir. Nəticədə həmin yerdə cəhalət günü-gündən güclənir və özünü erkən nikahlarda, təhsildən yayınmaqlarda özünü göstərir".

Deputat qızların təhsildən uzaqlaşdırılması probleminə də toxunub: "Qızların təhsilə cəlb olunması üçün dövlət ciddi addımlar atmalıdır. Hətta bir müddət bundan əvvəl belə bir şüar vermişdim ki, Azərbaycanda bir dənə də olsun təhsilsiz qız qalmamalıdır. Hər bir təhsil almayan şagird barəsində mütləq dövlət dərhal araşdırma aparmalı, onu təhsildən yayındıran valideyni ən ciddi şəkildə cəzalandırmaq lazımdır. Valideynlərin bu barədə haqlı iradları da var ki, qızların normal mühitdə təhsil alması üçün infrastruktur yetərli deyil. Amma bəhanə hər yerdə var. Hətta oğurluq edən, qatil olan insanlar da özünə bəraət üçün bəhanə gətirir. Pislik etmək üçün kifayət qədər bəhanə var. Yaxşılıq üçün ən çətin mühitdə belə güc qoyub, fədakarlıq etmək lazımdır. Əgər valideyn fədakarlıq etmir, qızını satıb canını qurtarmaq istəyirsə bu da savadsızlığın, cahilliyin bir növüdür. Buna görə də biz cəmiyyətdə daha çox ananı savadlı yetişdirməliyik ki, övladını düzgün tərbiyə etsin, savadlanması üçün addımlar atsın. Belə olmayan halda Azərbaycan uşağı orta səviyyədən irəli gedə bilməyəcək".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

# "Adelyanı balkondan atandan sonra uşaqları ilə qucaqlaşaraq yatıb"

Xalq artistinin nəvəsinin məhkəmə istintaqı yekunlaşıb

**Bakıda baş verən dəhşətli qətl hadisəsinə görə məhkəmə iclası davam etdirilir. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsin həyat yoldaşını yaşadığı binanın 5-ci mərtəbəsindən ataraq öldürməkdə təqsirləndirilən Ramiz Taxveli hakim önünə çıxarılıb. İşə hakim Rasim Sadıxovun sədrliyi ilə baxılır.**



Öncə onu qeyd edək ki, təqsirləndirilən R.Taxveli müalicə müəssisəsində müalicə alır. O, məhkəməyə əlil arabasında gətirilir və deyilənə görə, özünü idarə edə bilmir, psixoloji problemləri var. Dünən baş tutan prosesdə də Ramiz Taxvelinin davranışlarını idarə edə bilmədiyi müşahidə edilib. Amma istintaq Taxvelinin səhhətində heç bir problem olmadığı qənaətinə gəlib.

Zərərçəkmiş tərəf də bununla razılaşmır, Ramiz Taxvelinin bilərəkdən bu cür davrandığını deyir. Mərhumun anası Samirə Süleymanova Ramiz Taxvelinin davranışlarını şou adlandırır.

Sonuncu məhkəmə iclasında sənədlərin tədqiqi mərhələsi başa çatıb. Məhkəmədə Taxvelinin hadisəni törədən zaman anlaqlı olması ilə bağlı ekspertiza təyini elan edilib. İş üzrə maddi sübut kimi götürülən videogörüntülər izlənilib. O da məlum olub ki, Taxveli arvadını binadan atdıqdan sonra uşaqları ilə qucaqlaşaraq yatıb. Hadisə yerinə gələn polis əməkdaşları evə daxil olan zaman Taxveli uşaqları ilə birlikdə olub.

Məhkəmə prosesinin davamında sənədlərin tədqiqi mərhələsinin başa çatdığı elan olunub. Dövlət ittihamçısı çıxış üçün vaxt istəyib. Məhkəmə iclası sentyabrın 27-də davam etdiriləcək.

R.Taxvelinin vəkili Qanqa İbrahimovun vəsatəti əsasında iş materiallarında olan videogörüntülər izlənilib. Belə ki, hadisə baş verən binanın qarşısındakı binada kamera görüntüsü olub. Həmin görüntülər intihar hadisəsini lentə almasa da, binanın qarşısında baş verənləri lentə alıb. Videogörüntülər izlənildikdən sonra sənədlərin tədqiqi mərhələsi başa çatacaq və dövlət ittihamçısı Ramiz Taxveliyə cəza istəyəcək.

İttihamda yazılır ki, Taxveli ilk qızının epilepsiya xəstəsi olaraq doğulmasında mərhum arvadı Adelyanı daim günahkar bilib. Bu səbəbdən də onların arasında mütəmadi olaraq mübahisə olub. Sonuncu dəfə o, ötən il dekabrın 9-da axşam saat 22 radələrində marixuana qəbul edib. Adelyanı yuxudan oyadaraq döyüb, saçından tutub sürüyərək otaqları gəzdirib və uşaqları ilə vidalaşmağa məcbur edib. İttihamda göstərilir ki, həmin vaxt yataqda olan xəstə qızı Aliyanı götürərək yerə çırparaq yuxudan oyadıb.

Səsə digər övladları da oyanıb. Uşaqlar atalarına yalvararaq analarını döyməməsini istəyib. Taxveli arvadını sürüyərək balkona çıxarıb və balkondan aşağı atıb.

Ona qarşı Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla qəsdən adam öldürmə) və 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələr əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma) ittihamı irəli sürülüb.

Xatırladaq ki, hadisə Nəsimi rayonu, 381-ci məhəllə, R.Behbudov küçəsi ev 65, mənzil 51-də baş verib. Taxveli Ramiz Pərviz oğlu həyat yoldaşı, 1988-ci il təvəllüdlü Taxveli Adelya Azər qızını yaşadığı binanın 5-ci mərtəbəsindən atıb. Nəticədə qadın aldığı xəsarətdən hadisə yerində keçinib.

Əvvəlcə mərhumun intihar etdiyi deyilirdi. Lakin araşdırmalardan sonra hadisənin intihar yox, qətl hadisəsi olduğu üzə çıxmışdı. Araşdırmalar zamanı o da məlum olub ki, R.Taxvelidə narkotik qəbulu nəticəsində psixi pozğunluq yaranıb. Bildirək ki, Ramiz Taxveli "Buta Palas"ın art direktoru olub. O, mərhum Xalq artisti Gülağa Məmmədovun nəvəsidir.

**❑ İlkin MURADOV, Musavat.com**

**Elan**

**Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Etibar Bəkirli küçəsi ünvanında yaşayan Azad Rzayevin adına olan şəhadətnanə itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 195 (7365) 21 sentyabr 2019

# 1 manata bazarlıq edə biləcəyiniz "Bit bazarı" - reportaj

## Alıcıları fərqli, satıcıları isə eynidir; Sabunçuda nələr dəyişsə də, bu bazar illədir ki, dəyişməz qalıb...

**Ötən aylarda Sabunçu Vağzalı və ətrafı yenidən quruldu. Aparılan işlərin, kanalizasiya xətlərinin yenilənməsinin nəticəsində yağışdan sonra sakinlərin görməyə vərdiş etdikləri "göl" də aradan qalxdı. Eyni zamanda ətrafda müasir obyektlər tikildi, iri mağazalar quruldu. Bütün bunların fonunda dəyişməyən bir şey qaldı -"Bit bazarı".**

İllərdir ki, bu ərazidə fəaliyyət göstərən "Cındır bazarı", "Bit bazarı" kimi tanınan ərazi bu gün də necə varsa, elə də qalmaqdadır. Sovet dönəmində ruslar köhnə, işlənmiş əşyaları, geyimləri Bakıya gətirib, burada öz həmyerlilərinə satıblar. Sovet rejimi dağılsa da, bazar fəaliyyətinə davam edib və bu gün də orada köhnə, bəlkə də lazımsız əşyalar satılır.

Bazarda köhnə mallar satıldığı üçün bura "Bit bazarı" adı qoyulub. Çoxları düşünür ki, bu bazardan imkansız şəxslər alış-veriş edirlər. Ancaq "Yeni Müsavat"ın əməkdaşı olaraq bazara daxil olub, satıcılarla, alıcılarla söhbət edəndə vəziyyətin başqa cür olduğunu öyrəndik.

Ətraf müasirləşib, bəs bazarda nə satılır?

Satıcı Musa Əhmədov bildirdi ki, ətrafın bazara heç bir aidiyyəti yoxdur. Bura illərdir ki, eyni vəziyyətdədir: "Mən uzun müddətdir burada işləyirəm. Bazar həftəsonu səhərdən açılır, axşam saat 17-18-də malları yığıb, dağılışırıq. İllərdir ki, bura belə fəaliyyət göstərir. Buranın alıcıları fərqli, satıcıları isə eynidir. Alıcı bilir ki, kim nə satır. Belə deyək ki, satıcılar bir növ ixtisaslaşıblar. Qapaq satan ayrıdır, kabel qırığı, oyuncaq sınığı satan ayrı. Bir adam hər şey sata bilməz. Ona görə ki, müştəri bilməlidir ki, kimdən nəyi almaq olar. Mən uzun müddətdir ki, qapaq, qazan satıram. Ən çox şüşə qapaqlar axtarırlar. Şüşə qapaqlı qazanlar çıxandan sonra al-ver yaxşı gedir. Bəziləri də köhnə qazanı alır, düzəltdirib işlədir".







Ümumilikdə bazarda normal nə isə tapmaq çətin məsələdir. Hər diləyin, əşyanın detallarına rast gəlmək mümkündür. Sınıq oyuncaqlar, köhnə ayaqqabılar bazarın ən çox satılan məhsuludur. Hətta qırıq qulaqcıqlar, köhnə telefon sınıqlarına da rast gəlmək mümkündür ki, bunların da qiyməti 20 qəpik, ən bahası isə 1 manatadır. Ancaq elektrik kabelləri ilə bağlı vəziyyət başqadır. Ümumilikdə bazarda tikintiyə aid bir çox şeylər satılır ki, onların qiymətləri qəpik-quruşa deyil. Məsələn, elektrik kabellərinin qiyməti demək olar ki, yenisi ilə eynidir. Bundan əlavə su boruları, sanitar qovuşaqların çəkilməsində istifadə olunan avadanlıqlar da satılır. Bu əşyaların da bazara görə qiyməti kifayət qədər yüksəkdir. Satıcılar bildirdilər ki, ərazidə yer pulu demək olar ki, yoxdur. Gün ərzində 2 manat yer pulu verirlər. Ona görə də burada işləmək onlar üçün rahatdır.

Digər bir məsələ də var ki, bazarda tez-tez oğrular da peyda olur. Belə ki, bazara gələn yeni satıcıların çoxu, haradansa oğurladıqları əşyaları burada satırlar. Onlar daha çox köhnə paltarlar, ayaqqabılar, yataq dəstləridir. Zibilliyə atdığımız ayaqqabıya hansısa həftəsonu bu bazarda rast gələ bilərik. Eyni zamanda aşağı mərtəbədə qalanlar ipdən çəkilərək oğurlanan yataq dəstlərini, paltarlarını bu bazarda tapa bilərlər. Bunun üçün satıcıların sözlərinə görə əraziyə tez-tez polislər də gəlir, oğurlanan əşyaları axtarırlar.

Bazarda olarkən ətrafda xeyli sayda bahalı maşınlar dayanmışdı. Hətta yaxınlıqda maşın saxlamaq qeyri-mümkün idi. Yeni bazarın alıcıları heç də satıcılar dediyi kimi imkansız insanlar deyil. Çox adam buraya bazardan tapa bilmədiyi hansısa detalı axtarmaq üçün gəlir. Məsələn, bazarda 1990-cı illərin sonunda satılan hava feni üçün hissə axtaran alıcıya rast gəldik. Bildirdi ki, fen təzədir, ancaq yandırıb-söndürən düyməsi qırılıb. Alıcı bir düymə üçün həmin fenin işlənmişini 3 manata alıb apardı. Satıcılar bildirdilər ki, bu bazardan hansısa detal üçün gəlib, köhnə malı alanlar çoxdur. Ona görə də hansısa qırıq telefonu alanlar, hökmən onu işlətmək mənası ilə almır. Sadəcə olaraq detal tapa bilmədiyi üçün qırıq telefonu alıb həmin detalı söküb çıxarır. Satıcılar söylədilər ki, əsasən telefon ustaları, elektron əşyaların təmiri ilə məşğul olan şəxslər bazara gəlib, bu kimi əşyaları alırlar.

**Ekspertlər bildirirlər ki, bu cür bazarlar bir çox köhnə şəhərlərdə var. Bazarları yığışdırmırlar. Çünki bu, həm tarix, həm də imkansızların imdadına çatan yerdir...**

**❑ Əli RƏİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir.**

# Miçel, cavab ver ki, niyə...

## O cərimə zərbəsini Çiçarito qola çevirməsəydi də "Sevilya" qapımıza yəqin yol tapacaqdı, amma o qol...




**"Qarabağ" Avroliqanın ilk turunda öz meydanında "Sevilya"ya uduzdu. Qeyri-adi heç nə baş vermədi. "Qarabağ"a ədalətsizlik olsa da, məşhur novellada deyildiyi kimi, 0:3 hesabına görə heç kim bizə heç zad deməz, azarkeş də qınamaz. Baxmayaraq ki, məğlubiyyətdən sonra tribunada ağlayan xanımın fotosunu da gördük...**




Ağlamamaq da olar. Çünki rəqib Avropanın ən güclü klublarının olduğu çempionatda oynayır, elə bizdən sonra növbəti rəqibləri kral klubu "Real"dır. Bizim futbolda kral olmağa hələ çox vaxtımız var, çox sular axmalı, çox sular durulmalıdır ki, Avropa miqyasında adımız çəkiləndə ehtiyat etsinlər.

İnsafən, "Qarabağ" bu xofu bir az yaradıb, daha əcnəbi klublar Bakıya əvvəlki kimi gəzməyə gəlmirlər. Gəlirlər ki, oynayıb qalib gəlsinlər, tər töküb xal qoparsınlar. "Qarabağ"a bu mənada heç bir iradım yoxdur, əksinə, ayrı-ayrı oyunçuları bağrıma basıram. Amma bu oyunda mənə qaranlıq qalan bircə sual var ki, ona yazının sonunda cavab istəyəcəm...

"Sevilya" CBC şərhçisinin dediyinə görə, əsas heyətinin 50 faizini meydana buraxmışdı. Mən təfərrüatı və klubun oyunçularını məlum icmalçı kimi tanımıram, amma nə fərqi var, udsaq deməyəcəkdilər ki, "Sevilya"nı 50 faiz uddular. Ya da indi kiminsə ağlına gəlmir ki, desin, "Qarabağ" zəif heyətlə oynayan "Sevilya"ya uduzdu. Əsas odur ki, meydanda oynayan 5 dəfə Avroliqanın qalibi olmuş, hazırda da La Liqada liderlik edən "Sevilya" idi və biz o adlı-sanlı kluba uduzduq.

"Qarabağ" stabil oynamadı. Gah çaşdı, gah tələsdi, gah təpidi. Biz beləyik: rəqibi qədərindən artıq şişirdirik, üfləyirik, sonra da meydanda təpiyirik. "Qarabağ" da belə başladı oyuna. Sonra bir az düzəldi, sonra hücumlar və stabilləşmə başladı. Bu oyunda ilk dəfə "Qarabağ"ın itirdiyi Geryenin yeri göründü. Ötən mövsüm "Sportinq"lə Lissabondakı oyunda müdafiənin sağında əjdaha kimi oynamış Geryeni deyirəm. Dünən müdafiənin sağında oynayan Ailton Silva 20 yaşlı Pozonun qarşında o qədər acız göründü ki... Hər dəfəsindəmi adamı aldadıb keçirdi e...Nəsə...Dedim axı bunları unudaq.

İndi gələrəm mətləbə. Mətləb isə ispanlardır. Bizim ispanlar. Romero ilə işim yox. Matçdan sonra Qurban Qurbanov dedi ki, xəstəymiş. Amma xəstə kimi pis oynamadı. Oynamadı kim? Miçel. İspan qəzetlərinə oyun ərəfəsi geniş müsahibələr verən Miçel. "Atletiko"ya İspaniyada başla gözəl qol vuran Miçel. "Sevilya"ya ilk qolu qazandıran Miçel...

Baxın, o cərimə zərbəsinə. Miçelin "Sevilya"nın oyunçusunun ayağına vurduğu zərbədən sonra qapımıza verilmiş cərimə zərbəsini deyirəm. Mən dəfələrlə baxdım. Siz də baxın. Miçel kimi təcrübəli oyunçu niyə topun olmadığı oyunçunun ayağına o zərbəni vurdu, izah edin. Sən qərəzlisən, futboldan heç nə bilmirsən deyin... Təki bu cərimə zərbəsinin niyə qapımıza təyin edildiyinə aydınlıq gəlsin. O cərimə zərbəsini Çiçarito qola çevirməsəydi də "Sevilya" qapımıza yəqin yol tapacaqdı. Amma o qol hər şeyi dəyişdi.



Sitatlara diqqət edək.

**Maksim Medvedyev:** "Qol buraxandan sonra da hamı əsəbləşməyə başladı. Nəticədə qapımızda ikinci topu da gördük".

**"Sevilya"nın baş məşqçisi Xulen Lopetegi:** "Qarabağ"a vurduğumuz ilk qol hər şeyi dəyişdi". Belə sitatlar çoxdur. Hamı ilk qolu deyir. Miçelin yaratdığı cərimə zərbəsindən sonrakı qolu deyirəm.

Oyundan əvvəl çox danışan Miçelin açıqlaması hələ ki yox. Susur. Niyəsini yenə də bilmirəm... Cavabını bilən varmı?..

**❑ Nazim SABİROĞLU,**
**Musavat.com**

YENİ MÜSAVAT
# Son səhifə
N 195 (7365) 21 sentyabr 2019



## Təqaüdçü hamilə qadının hücumunu dəf etdi

**İngiltərənin Birmingem şəhərində 81 yaşlı bir qadın bankomatın qarşısında hamilə bir qadın soyğunçu ilə mübarizə apara bilib. The Sun saytı hadisənin videosunu yayımlayıb.**

Bu ilin mayında Doreen Jones bir bankomat vasitəsi ilə pul götürürmüş. Həmin vaxt bir qadın ona yaxınlaşıb və bank kartını onun əlindən almağa çalışıb. Təqaüdçü öncə ondan uzaqlaşmasını tələb edib, kartını gizlədib və daha sonra hücumçu qadının saçından, yaxasından tutub. Yaşlı ingilis qadın deyir ki, həmin anlarda onun beynindən ancaq bu düşüncə keçirdi: "Xeyr, sən mənim pulumu ala bilməzsən, çünki bu pulu əldə etmək mənim üçün çox ağır olub".

Oğru qışqırmağa başlayıb və əliboş oradan uzaqlaşıb. Polis onu axtarışa verib və hadisənin gizli videosunu internetdə yerləşdirib. Məqsəd bu qadının kiminsə tərəfindən tanınması və həbsidir. Ehtimallara görə, soyğunçu hücum zamanı hamilə olub.

Polis şübhəlinin Consa hücum etməzdən əvvəl onu izlədiyini söyləyib. İlkin versiyalara görə, soyğunçunun yaşlı qadını hədəf olaraq seçməsi onun yaşlı olması və əlindəki əsaya görə olub. Amma bu hadisə yaşlı qadının sağlamlığına ziyan vurub. Belə ki, həmin vaxtdan bəri o, iki dəfə infarkt keçirib.

Daha öncə xəbər verilmişdi ki, İngiltərədə silahlı bir şəxs supermarketə girərək ona pul verilməsini tələb edib. Amma 11 yaşlı qız ona çörək atdığı üçün hadisə yerindən qaçıb.

## İt qəzaya düşən dostunu tərk etmədi

**Çinin Guizhou ştatının Kaili şəhərində bir neçə saat ərzində avtomobilin altında qalan it dostunu tərk etməyib. Bu barədə "Daily Mail" məlumat yayıb. Qəza itin gözünün qarşısında baş verib. Heyvan dərhal yolda uzanan və ayağa qalxa bilməyən yaralı dostunun yanına qaçıb. Köpək ağlayıb və dostu ölənə qədər oradan uzaqlaşmayıb.**



Şahidlərdən biri deyir: "Davamlı olaraq dostu ətrafında dairə vuraraq gəzirdi. Bu, ürək parçalayan bir mənzərə idi".

Yerli sakinlər ölən itin yaxınlıqda yaşayan təqaüdçüyə aid olduğunu iddia edirlər. Hər iki it ayrılmaz dost olub və tez-tez parkda bərabər oynayırmışlar.

İyun ayında, ABŞ-ın Nyu Cersi ştatında itin bir neçə gün mərhum sahibinin xəstəxana yatağında oturduğu, onun geri dönməsini gözlədiyi bildirilmişdi. Muz adlı üç yaşlı bir it sahibinin ölümündən çox kədərlənmişdi.

## Ağcaqanad dişləyən kimi öldü



**ABŞ-ın Miçiqan ştatında 64 yaşlı Qregg McChesneyi ağcaqanad dişlədikdən sonra nadir xəstəliyə tutulub. Kişi doqquz gün sonra dünyasını dəyişib.**

"İyulun sonlarında Gregg fermada idi və gölməçədəki körpü düzəltməyə kömək edirdi" deyən qardaşı Markın sözlərinə görə, qardaşı tam sağlam və şən olub. Xəstəlik doqquz gün ərzində onun öhdəsindən gəlib. Mark deyir ki, birdən-birə qardaşının halı pisləşib, daha sonra isə onu təcili olaraq xəstəxanaya aparıblar.

Həkimlər ona ağcaqanadlarla ötürülən ölümcül atlı Şərq ensefaliti virusunun (VVEL) yoluxduğunu təsdiqləyiblər. Həkimlər son ana qədər xəstənin həyatını xilas edə bilməyiblər. Bu günə qədər sözügedən bölgədə bu xəstəlikdən yeddi yoluxma hadisəsi qeydə alınıb. Bu xəstəlikdən eyni zamanda təkcə insanlar yox, heyvanlar da əziyyət çəkirlər. Artıq doqquz at ağcaqanad dişləməsindən ölüb.

VVEL-ə yoluxanların qəfil temperaturu, titrəmələri və oynaq ağrıları yaranır. Xəstəlik kəskin baş ağrılarına, sarsıntılara, beynin iltihabına və iflicə səbəb olur. Ağır hallarda beyin zədəsi geri dönməz olur, nəticədə xəstə komaya düşür və ya ölür.

**Virus olduqca nadirdir - ildə təxminən yeddi diaqnoz qoyulur. 15 yaşdan yuxarı və 50 yaşdan yuxarı insanların bu xəstəliyə daha çox meylli olduğu məlumdur.**

## Kişilərin kompüter oyunlarına meyl etmə səbəbi aydın oldu

**ABŞ-ın Stenford universitetinin alimləri funksional maqnit rezonans tomoqrafiyasının köməkliyi ilə kişilərin komputer oyunlarına maraq göstərmələrinin səbəbini ayırd etmək qərarına gəliblər. Onlar bu nəticəyə gəliblər ki, kişilər qadınlara nisbətən kompüter oyunlarına 2-3 dəfə daha artiq aludə olurlar. Oyun zamanı qadınlardan fərqli olaraq kişilər daha çox ərazi qazanmağa müvəffəq olublar. Belə ki, kişilər hansı kürəciklərin ilk növbədə vurulmasını müəyyənləşdirib onları zərərləşdiriblər. Məlum olub ki, oyun zamanı hər iki cinsdən olan oyunçuların beyinlərində həzz alma refleksinə cavab verən mezokortikolimbik sahə aktivləşməyə başlayıb.**

Lakin qadınlardan fərqli olaraq kişilərdə bu sahə daha aktiv olub. Alimlərin fikrincə, ərazi zəbt etməklə kişilər daha çox həzz alırlar. Alanın sözlərinə görə, tarixi faktlar da bu nəzəriyyənin həqiqliyini sübut edir. Məhz bu xüsusiyyətə görə kişilər ərazi zəbt etmək imkanı verən oyunlara daha bağlı olurlar. Bundan əlavə kişilər oyunun daha çox davam etməsində də maraqlı olurlar. Bu səbəbdən də kişilər aqressiya və işğalçılıq motivləri olan oyunlara daha çox maraq göstərirlər.

## Bunları bilirsizmi?

* Bədənimizdəki damarların ümumi uzunluğu 96 min kilometrdir. Bu uzunluq ilə dünyanı 3 dəfə dolaşmaq olar.

* İnsan gözü o qədər həsassdır ki, əgər dünya düz olsaydı 60 km uzaqdakı şam işığını görə bilərdi.

* İnsan beyni dəqiqədə 1000 kəlmə oxuya bilər.

* İnsan saçı 12 ton çəkisi olan yük qaldıra bilər.

* İnsan bədənindən 30 dəqiqədə çıxan enerji ilə 4 litr su qaynatmaq olar.

* İnsan bədənində şimpanzedə olan qədər tük var. Lakin onların çoxu görünmür.

* İnsan sümüyü qranit kimi möhkəmdir. Sümüklər 9 ton yük qaldıra bilər.

* İnsan beyni kompüter olsaydı saniyədə 38 katrilyon iş görə bilər. Dünyanın ən güclü komputeri olan "BlueGene" bu rəqəmin 2/1000 görə bilir.

* Körpələrin əksəriyyəti mavi gözlü doğulur. Lakin ultrabənövşəyi işıqların təsirindən rəng dəyişir.

* Bir dırnağın tam böyüməsi üçün 6 ay lazımdır.

* Böyrəklərimizdə 2 milyona yaxın filtr var ki, onlar da hər dəqiqədə 1,3 litr qan təmizləyir.

* Hər bir insanın özünə xas qoxusu var. Bu qoxu ancaq əkizlərdə eyni ola bilər.

* Çox yuxu görmək yüksək İQ səviyyəsindən xəbər verir.

* Səhər yuxudan duranda 1 sm daha uzun oluruq. Bunun səbəbi onurğa qığırdaqlarımızın gün boyunca yığılmasıdır.

* Bədənimiz hər saniyə 25 milyon yeni hüceyrə istehsal edir.

* İnsan beyni bütün bədənin oksigeninin 20 faizini təkbaşına istifadə edir.

* Bəzi qadınlar çox insanla müqayisədə dünyanı daha rəngli görürlər. İnsanların əksəriyyətində 3 tip rəng qəbuledici olsa da, az qisim qadınlarda bu say 4-5 arasında olur.

## Sentyabr ayında milad bayramını qeyd etdi

**Böyük Britaniyanın xəstə bir sakini sentyabr ayında əri və üç uşağı ilə Milad bayramını qeyd edib. Buna səbəb onun xərçəng xəstəsi olması, iki həftə ərzində dünyasını dəyişəcək olmasıdır. Bu barədə "Daily Star" məlumat yayıb.**



2015-ci ildə, 33 yaşlı Sarah McLaughlina döş xərçəngi diaqnozu qoyulub. Uzun müddət davam edən müalicəyə, o cümlədən mastektomiya, kimyaterapiya və radioterapiya tətbiq olunmasına baxmayaraq, 2017-ci ildə qadına xəstəliyin terminal mərhələsində olduğu bildirilib.

Sentyabrın 6-da McLaughlin boynunda qəribə bir "klik" hiss edib. Tibbi müayinə xərçəngin qan damarına yayıldığını və onun yaşamasına cəmi iki həftə qaldığını göstərib. Qadın xəstəxanada qalmaqdan imtina edib və son günlərini ailəsi ilə keçirmək üçün evə qayıdıb. Sonuncu dəfə Miladı ailəsi ilə birlikdə qeyd etməsini istəyib. Buna görə də bu bayramı sentyabr ayında təşkil etmək qərarına gəliblər.

McLaughlin həyatının ən yaxşı günü olduğunu etiraf edib. Milad günlərində ana 11 yaşlı övladına son hədiyyəsini - 400 funt sterlinq dəyəri olan planşeti verib. Dediyinə görə, övladı ananın xəstəliyi ilə bağlı xəbərləri digər uşaqlardan daha ağır qarşılayıb. Nə baş verdiyini hələ də anlamır və düşünür ki, onu tək buraxmaq istəyirlər. Uşaq anasını qucaqlayıb və onu tərk etməməsini xahiş edib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050